**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

2 dekabr 2022-ci il
№47 (9005)

www.muallim.edu.az
muallim@edu.gov.az



Noyabrın 25-də elm və təhsil naziri Emin Əmrullayev media üçün brifinq keçirərək təhsil sahəsində baş verən vacib hadisələrə münasibət bildirib. Təhsil Nazirliyinin Elm və Təhsil Nazirliyi adlandırılması istiqamətində həyata keçirilən iş yekunlaşır. Emin Əmrullayev Nazirliyin nəzdində fəaliyyət göstərəcək 3 agentliyin – Elm və ali təhsil üzrə, Məktəbəqədər və ümumi təhsil üzrə, Peşə təhsili üzrə dövlət agentliklərinin qurulduğunu, Nazirliyin yanvar ayından yeni strukturla fəaliyyətə başlayacağını bildirib.

Elm sahəsində ilk iş isə tədqiqat institutları ilə ali təhsil müəssisələrinin bəziləri arasında magistratura səviyyəsində birgə proqramlar olacaq. Maraqlı tədqiqat işləri olduğunu vurğulayan nazir deyib ki, həmin işləri tədqiqat laboratoriyalarının dəstəklənməsi üçün mexanizmlər müzakirə olunur. 2023-cü ildə elmin inkişafında planlaşdırma və düzgün strategiyanın qurulmasına daha çox zaman sərf ediləcək.

⇨Ardı səh.6

# Direktorlar sertifikasiyada yüksək bal toplayan müəllimlərin arasından seçiləcək

## İnam, sevgi olarsa...



Sabah “Beynəlxalq Əlillər Günü”dür. Təhsildə sağlamlıqlarının yaratdığı məhdudiyyətlərə baxmayaraq, məqsədinə çatanlar çoxdur. “Azərbaycan müəllimi”nin də bu səhifəsinin qonağı məhz onlardır, məhəccərsiz pilləkanı təkbaşına çıxa bilməyib, təhsildə pillə-pillə yüksələnlər...

⇨Ardı səh.12

## BU SAYIMIZDA

### Məktəb mühiti uşaqları xoşbəxt edə bilirmi?



Məktəb mühiti daim hərəkətdə olan, dəyişən, yenilənən canlı orqanizmdir. Bu baxımdan, məktəblərə hər səfərdə yenilikləri görmək, məktəb idarəetməsində iştirak edən şəxslərlə, müəllim, şagird və valideynlərlə müzakirələr olduqca maraqlı və əhəmiyyətli amilləri üzə çıxarır, atılan addımların nəticələrini daha aydın görməyə imkan verir. Hər həftə ən az iki-üç dəfə səhər tezdən işə gələrkən yolumu paytaxtın ümumi təhsil müəssisələrindən salıram.

səh.9

### Böyük istiqlal şairi



Azərbaycan xalqının tarixində xüsusi xidmətləri olan görkəmli şəxsiyyət, böyük şair, tanınmış maarifçi və ictimai xadimlərdən biri də Əhməd Cavaddır. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev istiqlal şairi kimi müstəsna mövqeyə malik olan bu böyük söz ustasının anadan olmasının 130 illiyinin qeyd edilməsi haqqında 20 aprel 2022-ci ildə sərəncam imzalamış və onun fəaliyyətini yüksək qiymətləndirmişdir.

səh.13

### Tələbələr hansı universiteti seçməlidirlər?



Müasir dünya yüksəkixtisaslı, peşəkar, intellektli, xüsusi səriştə və bacarıqlara sahib mütəxəssislərin çiyinləri üzərində formalaşmaqdadır. Daim dəyişən əmək bazarı isə ali təhsil müəssisələrindən yüksəkixtisaslı, əməkqabiliyyətli mütəxəssislər gözləyir. Bəs, bu məzunlar harada hazırlanır? Hansı universitetlər daha yaxşı əməkqabiliyyətli məzunlar buraxır? Böyük Britaniyanın “Times Higher Education” nəşrinin növbəti tədqiqatı bu suala cavab verir.

səh.16

# “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).
2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 noyabr 2022-ci il*



*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | “Heydər Əliyev İli” ilə bağlı yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Mərkəzi |
| 2. | Yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsi, müsahibə və məqalələrin dərc edilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, Heydər Əliyev Mərkəzi |
| 3. | Azərbaycan Respublikasının şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 4. | Azərbaycan Respublikasının şəhər və rayonlarında “Heydər Əliyev İli”nə həsr olunmuş müxtəlif müsabiqələrin, sərgi, festival və düşərgələrin, konsert və tamaşaların təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 5. | Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən “Heydər Əliyev İli” ilə bağlı tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi |
| 6. | Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəblərində “Heydər Əliyev İli”nə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Diasporla İş üzrə Dövlət Komitəsi |
| 7. | Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlarda “Heydər Əliyev İli” ilə əlaqədar tədbirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi |
| 8. | “Heydər Əliyev İli” çərçivəsində idman yarışlarının və beynəlxalq turnirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Gənclər və İdman Nazirliyi |
| 9. | “Heydər Əliyev İli” ilə əlaqədar ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Reklam Agentliyi, Heydər Əliyev Mərkəzi, yerli icra hakimiyyəti orqanları |
| 10. | Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşri | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 11. | Ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələr üçün “Heydər Əliyev təqaüdü”nün təsis edilməsi | 2023-cü il may–iyun | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyi |
| 12. | Təhsil müəssisələrində “Heydər Əliyev dərsləri”nin keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisəsi olan aidiyyəti dövlət orqanları (qurumları) |
| 13. | “Heydər Əliyev İli” çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi |
| 14. | Azərbaycan Respublikasının şəhər və rayonlarında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi və abadlıq işlərinin aparılması | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 15. | Azərbaycan Respublikasının “Heydər Əliyev – 100” yubiley medalının təsis edilməsi | 2023-cü il yanvar–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi (tövsiyə olunur) |
| 16. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markalarının və xatirə nişanlarının buraxılması | 2023-cü il mart–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 17. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələrin hazırlanması | 2023-cü il fevral–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Mərkəzi Bankı (tövsiyə olunur) |
| 18. | Heydər Əliyev Mükafatının təqdimat mərasiminin keçirilməsi | 2023-cü il may | Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyası, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası |

# Lənkəran Dövlət Universitetinin əməkdaşlarına “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Lənkəran Dövlət Universitetinin 30 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Lənkəran Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına “Əməkdar müəllim” fəxri adı verilsin:

Ağazadə Yədulla Bəbir oğlu
Əzizov Sənan Qərib oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 noyabr 2022-ci il*

# Lənkəran Dövlət Universiteti əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Lənkəran Dövlət Universitetinin 30 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Lənkəran Dövlət Universitetinin aşağıdakı əməkdaşları “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Ağayeva Məlahət Əli qızı
Mahmudov Kamal Fətulla oğlu
Şahqubadbəyli Ənvər Xandadaş oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 noyabr 2022-ci il*

# Zaqatalada STEAM Mərkəzi istifadəyə verilib

Noyabrın 28-də Zaqatala şəhərində Z.Murtuzəliyev adına 1 nömrəli tam orta məktəbdə STEAM Mərkəzinin açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Bəhruz Mehdiyev, rayon üzrə təhsil sektorunun müdiri Kəmalə Əhmədova iştirak ediblər.

Mərasimdə iştirak edən qonaqlar Mərkəzdə şagirdlər üçün yaradılmış şəraitlə tanış olublar. İnnovativ texnologiyalarla tam təmin olunan Mərkəzin bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulduğu və burada "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap mexatronika, dron istiqamətləri üzrə sahələrin mövcudluğu iştirakçıların diqqətinə çatdırılıb.

Eyni zamanda regionun digər məktəblərinin şagird və müəllimlərinin də Mərkəzdə yaradılmış imkanlardan istifadə edə biləcəkləri xüsusilə vurğulanıb.

Qeyd edək ki, 2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlarda tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və s. kimi bacarıqlar formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, eləcə də fənləri onların real dünyadakı tətbiqlərinə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir.







# Nazir Şəkidə vətəndaşları qəbul edib



Noyabrın 28-də elm və təhsil naziri Emin Əmrullayev Şəki şəhərində Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala və Balakən rayonlarında qeydiyyatda olan sakinləri qəbul edib. Qəbulda qeyd olunan ərazilərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Qoşulmama Hərəkatına üzv dövlətlərin təhsil nazirlərinin görüşü keçirilib

Noyabrın 29-da Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Qoşulmama Hərəkatına üzv dövlətlərin təhsil nazirlərinin onlayn görüşü keçirilib.

Görüşdə açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev pandemiya dövründə ölkəmizdə təhsilin davamlılığının təmin edilməsi məqsədilə atılan addımlar, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində təhsil sahəsində görülən işlər və əldə olunan nailiyyətlər barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Tədbirdə həmçinin UNESCO-nun Baş direktorunun təhsil məsələləri üzrə müavini Stefania Giannini, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Baş katibinin təhsil siyasəti üzrə xüsusi müşaviri, təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer və Qoşulmama Hərəkatına üzv dövlətlərin təhsil nazirləri çıxış edərək təhsil sahəsi qarşısında duran çağırışlardan bəhs edib, baş verən yeniliklərlə bağlı öz təcrübələrini bölüşüblər.

Görüş zamanı Qoşulmama Hərəkatı Gənclər Təşkilatının rəhbəri Orduxan Qəhrəmanzadə də çıxış edib və təşkilatın fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verib.

# GDU Böyük Britaniyanın ali məktəbləri ilə əlaqələrini genişləndirir



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri Fergus Auld Gəncə Dövlət Universitetində (GDU) olub.

Səfirlə görüşən universitetin rektoru Yusif Yusibov qonağa ali təhsil ocağının fəaliyyəti və beynəlxalq əlaqələri barədə məlumat verib. Rektor bildirib ki, GDU-nun iqtisadiyyat və idarəetmə, həmçinin kimya-biologiya fakültələrində tədris ingilis dilində aparılır və hazırda 400-dən çox tələbə ingilis dili üzrə təhsil alır.

Səfir Fergus Auld Azərbaycan və Böyük Britaniya arasında yüksək səviyyəli siyasi dialoq, qarşılıqlı maraqlara hörmət və təhsil sahəsində əməkdaşlığın yüksək nəticələri olduğunu qeyd edib. Bildirib ki, uzun illər ərzində kifayət qədər azərbaycanlı Böyük Britaniyada təhsil alıb və almaqda davam edir.

Görüşdə universitet tələbələrinin ingilis dili üzrə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müvafiq mərkəzin yaradılması və Böyük Britaniyanın ali məktəbləri ilə əlaqələrin qurulmasına dair müzakirələr aparılıb.

Qeyd edək ki, görüşdə "British Council" təşkilatının Azərbaycan ofisinin direktoru Nərgiz Hacıyeva, təşkilatın meneceri Nərgiz Əkbərova, Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin əməkdaşları, universitetin elm və innovasiyalar üzrə prorektoru, millət vəkili Pərvin Kərimzadə, İnnovasiyalar Departamentinin direktoru Vasif Həsənov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruslan Məmmədov, İnnovasiyalar Departamentinin şöbə müdiri Razim Əliyev də iştirak ediblər.

**Nəzrin SEYİDƏLİYEVA**

# "Kibertəhlükəsizlik: əsas çağırışlar və müasir texnologiyalar"

Mingəçevir Dövlət Universiteti (MDU) və Türkiyənin Qazi Universitetinin birgə təşkilatçılığı ilə "İnformasiya təhlükəsizliyi günləri" çərçivəsində "Kibertəhlükəsizlik: əsas çağırışlar və müasir texnologiyalar" mövzusunda tələbə elmi-praktik seminarı keçirilib.

Zoom platforması üzərindən onlayn formatda təşkil edilən seminarda hər iki universitetin akademik və inzibati heyət üzvləri, tələbə, magistrant və doktorantları iştirak ediblər.

Seminarın açılışında Qazi Universitetinin texnoloji fakültəsinin Kompüter mühəndisliyi bölümü rəhbəri, professor Ayhan Erdem və MDU-nun mühəndislik fakültəsinin dekan əvəzi, dosent Almaz Əliyeva çıxış ediblər. İnternet texnologiyalarının geniş yayıldığı və virtual mühitin sürətlə formalaşdığı müasir şəraitdə kibertəhlükəsizliyin önəmi vurğulanıb, bu sahədə tədqiqatların və yüksəkixtisaslı kadr hazırlığının aktual vəzifələrindən bəhs edilib, seminarın əhəmiyyəti diqqətə çatdırılıb.

Sonra seminarın proqramına uyğun olaraq məruzələr dinlənilib. Qazi Universitetinin tələbələrindən Burak Çayır "Kibertəhlükəsizlik sahəsində monitorinq", Berk Albayrak "Hücum kəşfiyyatı" və doktorant Egemen Taşkın "Android zərərli proqram təminatının aşkarlanması üçün blokçeyn əsaslı verilənlər bazası və maşın öyrənmə platforması", MDU tələbələrindən isə Aygün Məlikova "Kibertəhlükəsizlik: texnologiyaları, tətbiq sahələri və inkişafı", Məleykə Mahmudlu "Rəqəmsal imza: imkanları və perspektivləri" və Nihat Xəlilov "Bulud texnologiyalarında istifadə olunan təhlükəsizlik alətləri" mövzularında çıxış ediblər.

Məruzələr ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Tələbələr AMEA Mərkəzi Elmi Kitabxanasının iş təcrübəsi ilə tanış olublar

Bakı Dövlət Universitetinin (BDU) Kitabxanaçılıq-informasiya fakültəsinin III kurs tələbələri Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) iş təcrübəsi ilə tanış olublar.

Kitabxananın direktoru professor Məmməd Əliyev MEK-in tarixi, strukturu, müasir dövrdəki fəaliyyəti, sənəd dövriyyəsi, kitab fondu və eləcə də prioritetləri barədə tələbələrə ətraflı məlumat verib. O vurğulayıb ki, kitabxananın yeni binası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikilib. Kitabxana ən müasir avadanlıqlarla təchiz olunub, ötən dövr ərzində qurumun kadr potensialı inkişaf etdirilib. Tələbələr təcrübə zamanı kitabxananın şöbələri, həmçinin ənənəvi və elektron kataloqu ilə tanış olublar, burada həyata keçirilən rəqəmsallaşdırma prosesləri barədə informasiyalar onların diqqətinə çatdırılıb. Kitabxanada yeni yaradılmış Qarabağ Qəhrəmanları Fondu ilə tanışlıq təcrübə iştirakçılarında böyük təəssürat yaradıb.

Görüş zamanı tələbələrin sualları MEK-in mütəxəssisləri tərəfindən cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dosenti, təcrübə rəhbəri Rəşad Qardaşov kitabxananın rəhbərliyinə yaradılmış şəraitə, tələbələrə göstərilən xüsusi diqqət və qayğıya görə təşəkkürünü bildirib.



# Təhsildə seçilənlər





## 133 təhsil işçisi verdiyi töhfənin mükafatını aldı

Məxluqə Mustafayeva Qazaxdan gəlib paytaxta. Rayonun sayılıb-seçilən riyaziyyat müəllimlərindəndir. Çaylı kənd Elşən Cəfərov adına 2 nömrəli tam orta məktəbində 40 ildən çoxdur müəllimdir. Nəinki sinifdə keçirdiyi 40 ilin, bu həyatda tamamladığı 66 ilin də ən böyük hədiyyəsini aldı o gün. Elm və təhsil naziri Emin Əmrullayevin yaxasına sancdığı “Tərəqqi” medalı zəhmətinin ən böyük dəyəri oldu. O gün ürəyində coşan duyğuları minnətdarlıq dolu sözləri, sevincə boyanan baxışları da ifadə etməkdə aciz qaldı...

**Onlar həmin 133 nəfərdir ki...**

Məxluqə müəllim və onun kimi 133 nəfər təhsilə öz töhfəsini verən təhsil işçisi noyabrın 30-da Bakı şəhəri 20 nömrəli məktəb-liseydə toplanmışdı. Həmin 133 nəfər ki, Beynəlxalq Müəllimlər Günü ərəfəsində Prezident İlham Əliyev ölkə təhsilinin inkişafındakı xidmətlərini, beynəlxalq və respublika fənn olimpiadalarının keçirilməsində və şagirdlərin hazırlığı sahəsində xüsusi nailiyyətlərini nəzərə alaraq təltif edib. 54 nəfərə “Əməkdar müəllim” fəxri adı, 79 nəfərə isə “Tərəqqi” medalı təqdim olundu.

**“Medallar, təltiflər həyatda çox şeyi dəyişmir, ancaq mənəvi dəyəri var”**

Mükafatları təqdim edərkən nazir Emin Əmrullayev dövlətin və millətin təhsildən gözləntilərini, Nazirliyin müəllimlərdən tələblərini də xatırlatdı. Müstəqilliyimiz elan olunandan bəri 4500 müəllimin təltif olunduğunu vurğulayaraq təltifləri müəllimlərə, o cümlədən təhsilə dövlətin etimadı kimi dəyərləndirib və bu etimadın gənc müəllimlərə stimul olacağına inamını ifadə etdi: “Medallar, təltiflər həyatda çox şeyi dəyişmir, ancaq mənəvi dəyəri var. Öz bacarığınız, davranışınız, peşəkarlığınızla sizdən sonra gələn gənc nəslə nümunə ola, onların da həvəslənməsinə səbəb ola bilərsiniz”.

Təhsildə həyata keçirilən islahatlara, xüsusən sertifikasiya prosesinə diqqət çəkərək E.Əmrullayev müəllimlərin əməyinin məhz peşə bacarığından asılı olaraq qiymətləndirilməsinin düzgün addım olduğuna inandığını dedi.

Nazir təbrik nitqində müəllimlərin xüsusilə uşaqlar, yetişməkdə olan nəsil üçün nə ifadə etdiyinə xüsusi yer ayırdı: “Təhsilin keyfiyyəti müəllimin keyfiyyətindən yüksək ola bilməz. Gələcəyimizi necə yetişdirəcəyimiz məhz müəllimlərimizdən asılıdır. Hər şeyi uşaqlarımız üçün edirik. Onları yetişdirərkən nə öyrətdiyimizə, uşaqların nə qədər öyrəndiyinə, öyrətdiklərimizin gələcəkdə onlara lazım olub-olmayacağına diqqət yetirməliyik. Əks halda, yetişməkdə olan nəslin gələcəyini əlindən alarıq”.

Nazir E.Əmrullayev təltif olunan müəllimlərin bundan sonra da fəal olacağına, təhsilin məhz onların da köməyi ilə yeni çağırışların öhdəsindən gələcəyinə ümid etdiyini bildirdi. Müəllimləri bir-bir təbrik edərək onlara dövlət təltiflərini təqdim etdi.





Məxluqə Mustafayeva



Səbinə İsayeva



Aydın Şükürov



Qəhrəman Qasımov

**Böyük qələbəsi, dəyişməz qüruru şagirdləridir**

Təbrik və təltifə layiq olanlar sevincini “Azərbaycan müəllimi” ilə də bölüşdülər. Bu təltifə qədər olan fəaliyyətlərindən danışaraq dövlətin etimadına layiq olduğunu hər kəsə göstərməyə çalışanlardan biri Səbinə İsayevadır. Sumqayıtdakı 29 nömrəli tam orta məktəbin 22 ildir coğrafiya müəllimidir. Bakı Dövlət Universitetində əvvəlcə bakalavriat, sonra isə magistratura səviyyələrində təhsil alıb. Universiteti fərqlənmə ilə bitirərək 29 nömrəli tam orta məktəbdə fəaliyyətə başlayıb: “Artıq 4 ildir məktəbimiz “Sabahın alimləri” müsabiqəsində öz komandası ilə iştirak edir və 2 dəfə qaliblərdən olub”.

Səbinə müəllim özü də qrant müsabiqəsi qaliblərindəndir. Ancaq ən böyük qələbəsi, dəyişməz qüruru şagirdləridir. Uğurları ilə seçilən, yüksək nəticələr göstərən şagirdləri.

Aydın Şükürov Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın ərəb dili müəllimidir. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb dili şöbəsini bitirib. 1991-ci ildən ərəb dili müəllimi kimi fəaliyyət göstərir. Əvvəl 72 nömrəli məktəb-liseydə, 2000-ci ildən isə Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyada çalışır. Ərəb dili üzrə test tərtib edənlərdəndir. Deyir ki, ərəb dilinin tədrisini həyata keçirən 4-5 məktəb var. Amma neçə nəfərin ərəb dilinə marağı olmasının, neçə məktəbdə ərəb dilinin keçilməsinin fərqi yoxdur. Hətta bir məktəb, bir şagird üçün də olsa, o və bütün təhsil sistemi uşaqların təhsil almaq hüququnu, dil öyrənmək istəyini yerinə yetirməyə hazırdır.

**QƏHRƏMAN ömrü yaşayan müəllim**

Onun özü qəhrəmandır, adı Qəhrəman. Nizami rayonunda yerləşən Namiq Həmzəyev adına 238 nömrəli tam orta məktəbin fiziki tərbiyə müəllimi, qazi Qəhrəman Qasımovdur. 1991-1992-ci illərdə, aprel döyüşlərində və II Qarabağ müharibəsində iştirak edərək bədənini qəlpələr, sinəsini medallarla doldurub.

Qəhrəman müəllim, sözün əsl mənasında, qəhrəman ömrü yaşayır. Amma, sadəcə Qarabağ müharibələri qəhrəmanı deyil, həm də təhsilin qəhrəmanıdır. 1994-cü ildən müəllimlik fəaliyyətinə başlayıb. Deyir yetişdirdiyi qəhrəmanlarla səngərdə çiyin-çiyinə döyüşüb, tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında iştirak etdiyi nəslin döyüş ruhunu, əzmini səngərdə görüb və qürur duyub. Bundan sonrakı fəaliyyətində də yetişdirəcək, tərbiyə edəcək və baxıb qürur duyacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# Elm və təhsil naziri institutların fəaliyyəti ilə tanış olub







Elm və təhsil naziri Emin Əmrullayev İnformasiya Texnologiyaları, Riyaziyyat və Mexanika, akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri, həmçinin İdarəetmə Sistemləri institutlarını ziyarət edib.

Nazir institutlardakı mövcud şəraitlə tanış olub, rəhbər heyətlə görüş keçirərək bir çox məsələləri müzakirə edib.

İnformasiya Texnologiyaları İnstitutunun AzScienceNet, Tədris-İnnovasiya, Multimedia Texnologiyalar, Elektron Kitabxana mərkəzlərinin iş şəraiti ilə tanış olan Emin Əmrullayev eyni zamanda institut əməkdaşları ilə fikir mübadiləsi aparıb. Görüş zamanı AMEA-nın vitse-prezidenti, institutun baş direktoru Rasim Əliquliyev institutun yaranma və inkişaf tarixi, burada həyata keçirilən innovativ layihələr və prioritet istiqamətlərdə aparılan elmi tədqiqatlar haqqında məlumat verib. Rasim Əliquliyev institutun İKT-nin müasir problemlərinə dair multidissiplinar elmi tədqiqatlar aparan bir qurum olduğunu, burada informasiya texnologiyaları və informasiya cəmiyyətinin aktual elmi-nəzəri problemlərinin araşdırıldığını bildirib.

Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanovla keçirilən görüş zamanı institutun mövcud vəziyyəti, ölkəmizdə riyaziyyat və mexanika elmlərinin perspektivləri müzakirə edilib. Eyni zamanda institutda həyata keçirilən elmi-tədqiqat işləri, il ərzində nüfuzlu bazalara daxil olan jurnallarda çap olunmuş məqalələr və institutda hazırlanan elmi jurnallar haqqında geniş söhbət aparılıb. Jurnalların redaksiya heyətinin və məqalə müəlliflərinin əməyinin stimullaşdırılması məsələsi də müzakirə olunub.

Daha sonra akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru akademik Vaqif Abbasov və digər əməkdaşların iştirakı ilə keçirilən görüş zamanı institutda aparılan elmi tədqiqat işləri, kadr hazırlığı, kadr potensialı, tətbiq olunmuş və tətbiqə hazır işlər, eyni zamanda qarşıda duran problemlər haqqında danışılıb, institutun bir sıra laboratoriyalarına baxış keçirilib.

İdarəetmə Sistemləri İnstitutunu (İSİ) ziyarət edən elm və təhsil naziri Emin Əmrullayev institutun Azərbaycan elminin inkişafında oynadığı əhəmiyyətli rol, burada aparılan tədqiqatlar, bibliometrik göstəricilər, alınan patentlər, kadr potensialı, beynəlxalq əməkdaşlıq əlaqələri barədə məlumatlandırılıb. İSİ-nin baş direktoru akademik Əli Abbasov görüş zamanı institutda aparılan praktiki əhəmiyyətə malik cari tədqiqatlar nəticəsində yerli və beynəlxalq şirkətlərlə qurulan səmərəli əməkdaşlıq əlaqələrindən danışıb, əldə olunan mühüm elmi nəticələrin kommersiyalaşdırılması istiqamətində görülən işlərdən, o cümlədən institut tərəfindən hazırlanmış "əşyalar interneti" əsasında işləyən və hazırda neft sənayesində geniş tətbiq olunan SCADA (Supervisory Control and Data Acquisition) tipli sistemdən bəhs edib.

Qeyd edək ki, görüşlər çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Azərbaycanda aparılan kompleks islahatlar kontekstində elm sahəsində həyata keçirilən tədbirlər, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, yüksəkixtisaslı kadrların yetişdirilməsi, elmi fəaliyyətin səmərəsinin yüksəldilməsi, müvafiq sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində öz fikir və mülahizələrini bölüşüb.

# 3-cü Beynəlxalq Avrasiya Enerji və Dayanıqlılıq konfransı



## Enerji sahəsində müasir çağırışlar ali təhsil müəssisələri qarşısında yeni tədqiqat vəzifələri qoyur

Noyabrın 24-də Azərbaycan Texniki Universitetində (AzTU) "Avrasiyada dinamik enerji landşaftı: Enerji təhlükəsizliyinə qlobal təhdidlər, regional problemlər və imkanlar" mövzusunda 3-cü Beynəlxalq Avrasiya Enerji və Dayanıqlılıq konfransı öz işinə başlayıb.

10 ölkədən 500-ə yaxın nümayəndənin iştirak etdiyi konfrans AzTU və Türkiyənin Boğaziçi Universitetinin təşkilatçılığı ilə keçirilib.

Giriş nitqi ilə çıxış edən AzTU-nun rektoru Vilayət Vəliyev bildirib ki, konfransın əsas məqsədi biznes, hökumət və akademik qurumların iştirakı ilə Avrasiya regionunda enerji və dayanıqlı inkişafla bağlı problemləri müzakirə edərək müəyyən həll yolları və təkliflər müəyyənləşdirməkdir.

Daha sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək bildirib ki, bu gün enerji məsələləri qlobal miqyasda həm siyasi, həm də iqtisadi cəhətdən aktual mövzuya çevrilib. Avrasiyanın enerji sektorunda baş verən geosiyasi proseslər qlobal enerji bazarlarına birbaşa təsir etməklə yeni meyillər yaradır və dayanıqlı, hamı üçün əlçatan enerji təchizatının vacibliyini göstərir.

İşğaldan azad olunmuş ərazilərdə geniş abadlıq-quruculuq işləri aparıldığını diqqətə çatdıran Firudin Qurbanov qeyd edib ki, həmin ərazilərdə dayanıqlı enerji təchizatı məsələləri prioritet işlər sırasındadır. İşğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonası yaradılacaq və müasir texnologiyalara əsaslanan təmiz enerji istehsalı və təchizatı həyata keçiriləcək. Enerji sahəsində bu cür çağırışların ali təhsil müəssisələri qarşısında yeni tədqiqat vəzifələri qoyduğunu əlavə edən nazir müavini konfransın qeyd olunan əhəmiyyətli sahəyə töhfə verəcəyinə inamını ifadə edib.

Çıxışının sonunda konfrans iştirakçılarına uğurlar arzulayan Firudin Qurbanov Azərbaycan — Türkiyə qardaşlığının bütün sahələrdə olduğu kimi, akademik sahədə də inkişaf etdirilməsinin ölkələrimizin birgə elmi potensialının gücləndirilməsinə xidmət etməli olduğunu vurğulayıb.

Konfransda çıxış edən digər qonaqlar müzakirə olunacaq məsələlərin əhəmiyyətindən danışıblar. Bildirilib ki, konfrans Azərbaycanda və bütövlükdə Avrasiya məkanında enerji sənayesinin yeni problemlərini dövlət, akademik və biznes nümayəndələri ilə daha geniş auditoriyalarda müzakirə etmək, müasir qlobal sənaye tendensiyalarını təhlil etmək və ən yaxşı beynəlxalq təcrübələri öyrənmək üçün zəruri platforma rolunu oynayacaq.

Qeyd edək ki, iki gün davam edən konfransın bölmə iclaslarında "Avrasiyanın enerji sektoruna geosiyasi təsirlər", "Son dövrlərdə qlobal enerji bazarlarında baş verən meyillər", "BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində təmiz enerji hədəflərinə nail olmaq üçün enerji siyasəti", "Təmiz enerjiyə keçidin dəstəklənməsi" və digər mövzular ətrafında müzakirələr aparılıb.

# Çinin ölkəmizdəki səfiri AzMİU-da olub

Çinin ölkəmizdəki səfiri xanım Qo Min Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olub. Səfir əvvəlcə AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova ilə görüşüb.

Görüşdə səfirliyin nümayəndələri, Azərbaycan Dillər Universitetinin Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov və AzMİU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Nərgiz Abdullayeva da iştirak ediblər.

Rektor Gülçöhrə Məmmədova tarixi İpək yolu üzərindən xalqlarımız arasında qurulan mədəni və iqtisadi əlaqələrə, son illər isə Prezident İlham Əliyevin Çinə rəsmi səfərlərinə, Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə ikitərəfli görüşlərinə diqqət çəkərək əməkdaşlıq üçün münbit zəmin formalaşdığını qeyd edib. İki ölkə arasında əməkdaşlığın bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini deyən rektor elm və təhsil sahəsində, o cümlədən AzMİU ilə Çin universitetlərinin potensial əməkdaşlıq imkanlarından danışıb.

Ölkələrimiz arasındakı əməkdaşlığın günbəgün daha da inkişaf etdiyini deyən səfir Qo Min bildirib ki, səfirlik AzMİU ilə Çinin uyğun profilli universitetləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsinə, eyni zamanda ortaq təhsil və mədəniyyət layihələrinin həyata keçirilməsinə çalışacaq.

Görüşdən sonra AzMİU-nun İtaliya—Azərbaycan Dizayn Mərkəzində Çinin tarixinə və mədəniyyətinə həsr olunmuş AzMİU tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış keçirilib, eləcə də universitetin memarlıq fakültəsinin tələbələrinin canlı iş prosesi (kalliqrafiya və kağızkəsmə) ilə tanışlıq olub.

Sərgi çərçivəsində Konfutsi İnstitutunun tələbələri Çin mədəniyyətindən müxtəlif nümunələr nümayiş etdiriblər.

Daha sonra AzMİU-da yaradılan yeni avadanlıqlarla təmin edilmiş Çin dili tədrisi mərkəzi ilə tanışlıq olub. Burada mərkəzin yaradılması və fəaliyyəti ilə bağlı memorandum imzalanıb.

Sonda Çin milli çay mədəniyyəti nümayiş etdirilib və Çin çayı, növləri, istifadə üsulları haqqında geniş məlumat verilib.



## AzMİU ilə Çinin uyğun profilli universitetləri arasında əlaqələr qurulacaq, ortaq təhsil və mədəniyyət layihələri həyata keçiriləcək

# Direktorlar sertifikasiyada yüksək bal toplayan müəllimlərin arasından seçiləcək






⇦ Əvvəli səh.1

### Doktorantura üzrə ilk məzunlar

Hazırda ölkəmizdə xaricdə təhsil üzrə 2 Dövlət Proqramı icra olunur. Proqramların icrası vəziyyətindən danışarkən nazir doktorantura təhsili alan ilk məzunların ölkəyə qayıdacağını və 5 il müvafiq ali təhsil müəssisələrində işləyəcəklərini də qeyd edib. Onun sözlərinə görə, hazırda 207 nəfər “2019-2023-cü illər üçün Dövlət Proqramı” çərçivəsində xaricdə doktorantura təhsili, 353 nəfər “2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində bakalavr və magistr təhsili alır. 165 nəfər isə hökumətlərarası təqaüd proqramları (HTP) çərçivəsində xaricdə təhsil almaq imkanı qazanıb.

Noyabr ayının əvvəllərində artıq növbəti ilin proqramlarının elan edildiyini vurğulayan nazir mühəndislik, İKT və fundamental təbiət elmlərinə üstünlük verildiyini deyib. Yalnız bu ilin may ayında açıqlanan 186 universitetdə 4126 proqram üzrə müraciətlər maliyyələşdiriləcək.

### Məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi seçimində müsabiqə

Aprel ayından başlayaraq məktəbəqədər təhsil müəssisələrində aparılan işlər artıq nəticə verir. Məlumat sistemlərinin toplanması və şagird qəbulunda elektron qeydiyyatın aparılması bu sahədə əldə edilən ilkin uğurlardan sayılır. Ancaq problemlər də istisna deyil: “Məktəbəqədər təhsil müəssisələrində ilk dəfə işə salınan sistem çatışmazlıqları, nöqsanları, boşluqları da üzə çıxarıb. Üzləşdiyimiz yeni reallıqdan müəyyən həll yolları tapmağa çalışırıq”.

Məktəbəqədər təhsil sistemində daha bir yenilik isə tərbiyəçilərin müsabiqə yolu ilə işə qəbuludur. İlk dəfə keçirilən müsabiqənin test imtahanında 4539 namizəd iştirak edib. Onlardan 739 nəfər müsahibələrə dəvət edilib, 332 nəfər uğur qazanıb. Nazirin sözlərinə görə, mövcud vakant yer sayı 122 olduğundan yerləşdirmədə də müsabiqə gözlənilir. Müsabiqənin isə keyfiyyətə xidmət edəcəyi şübhə doğurmur: “Sertifikasiya da göstərdi ki, müsabiqə şəraitində işə qəbul olunan müəllimlərin səviyyəsi yüksək olur. Ümumtəhsil müəssisələrinin nümunəsində, demək olar ki, son illərdə mərkəzləşmiş qaydada məktəblərə qəbul olunan müəllimlərin hər biri sertifikasiyadan uğurla keçib”.

Tərbiyəçi yeri üçün müsabiqə vəziyyəti yaransa da boş qalan şagird yerləri çoxdur. Elm və Təhsil Nazirliyi tərkibində olan 1654 bağçada 116 min şagird yerinə 99 min uşaq qeydiyyatdan keçib. 16 minə yaxın boş yer üçün isə planlar var. Belə ki, hər həftənin bəlli bir günü həmin yerlər üzrə elektron qeydiyyat elan edilə, valideynlərə özlərinə uyğun olan müəssisədə uşaqlarını qeydiyyatdan keçirmək imkanı yaradıla bilər.

### Bağçalara isti yemək veriləcək

Məktəbəqədər təhsil müəssisələrində qidalanma normativi də dəyişdirilir. Çox köhnə olan mövcud normativlər müvafiq sahənin mütəxəssisləri ilə yenidən hazırlanır. E.Əmrullayev yeni standartların ilkin versiyasının artıq hazırlandığını bildirib. Bugünlərdə isə 50-yə yaxın bağçanın isti yeməklə təminatına başlanılıb.

### “Sertifikasiyadan sonra müəllimlərin maaşında 200 manata qədər artım görürük”

Yay aylarında 11657 nəfər ibtidai sinif müəllimi sertifikasiyaya cəlb olunub. Onların 75 faizi uğur qazanıb, 25 faizi isə uğursuz nəticə göstərib. Emin Əmrullayev uğur qazananların əməkhaqqında müşahidə edilən artımı rəqəmlərlə göstərib. Sertifikasiya imtahanlarında 51 baldan yuxarı nəticə göstərən müəllimlərin sayı 3163 nəfər olub. Həmin müəllimlər vergilər ödənildikdən sonra 831 manat maaş alıb. 5624 nəfər, yəni müəllimlərin 48 faizi 30-50 bal toplayaraq sertifikasiyadan keçib və maaşlarına 10 faiz əlavə olunduqdan sonra məvacibləri 686 manat civarındadır. Sertifikasiyada uğur qazana bilməyən müəllimlərin maaşı isə dəyişməyib və onlar 623 AZN pul alırlar: “Sertifikasiyadan sonra müəlimlərin maaşında 200 manata qədər, yəni 20 faiz artım görürürk”.

Müəllimlərin əməkhaqqı həm də onların dərs dediyi saatlardan asılıdır. Sertifikasiyada iştirak edən müəllimlər, əsasən 18-24 saat dərs deyir. Onlar müəllimlərin 75 faizini təşkil edir və əməkhaqqı 856 manatdır. Sertifikasiyada uğur qazanan həmin kateqoriyadan olan müəllimlərin maaşı vergi ödəndikdən sonra 928 manatdır. 24 saatdan çox dərs aparan 682 müəllimin əməkhaqqı isə 35 faiz əlavədən sonra 1140 manata çatıb.

Nazir hesab edir ki, uzunmüddətli vədədə müəllimərin dərs yükü də normallaşmalıdır ki, əməkhaqqı yüksək olsun: “Müqayisə üçün deyək ki, 273 müəllimin həftədə 6 saatdan az dərsi var. Məktəbdə 6 saatdan az dərs yükü olan müəllim sertifikasiyadan keçməyibsə, 131 manat, keçibsə 144 manat, 51 baldan yuxarı nəticə göstəribsə, 177 manat maaş alır. Bu istiqamətdə islahatlar davam edəcək”.

Nazir bu prosesin müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəlməsinə, müəllimlik ixtisasına olan marağın artmasına səbəb olacağını da vurğulayıb.

### Sertifikasiya prosesi ilə direktorların işə qəbulu əlaqələndiriləcək

Direktorların əməkhaqqına olan əlavələrə gəlincə, şagird sayından asılı olaraq onlar 600-1500 manat əlavə alırlar. Şagird sayı 2500-dən artıq olan məktəblərdə məktəb direktorlarının maaşı dediyi dərslərlə birlikdə 2000-2500 manat təşkil edir. Rəqəmlərə əsasən, məktəb direktorlarının maaşında 58 faiz artım olduğunu qeyd edən elm və təhsil nazirinin fikrincə, bu islahat daha bacarıqlı insanların arasından direktor seçməyə imkan verəcək: “Gələcək aylarda sertifikasiya prosesi ilə direktorların işə qəbulu prosesini əlaqələndirərək direktorları yüksək bal toplayan müəllimlərin arasından seçməyi planlaşdırırıq. Bunun direktorların işə qəbulu prosesini kifayət qədər daha rəqabətli edəcəyini düşünürük”.

### Yeni qaydalar 300 məktəbdə tətbiq ediləcək

Yeni hazırlanmış şagird davranış qaydalarının ictimai müzakirəsinin yekunlaşdırıldığını qeyd edən Emin Əmrullayev bildirib ki, qaydalar cari tədris ilinin ikinci yarımilində 300 məktəbdə pilot layihə kimi tətbiq ediləcək. Növbəti tədris ilindən isə bütün məktəblərdə tətbiqi nəzərdə tutulur.

### Məktəblərə sürətli internet gəlir, şagird-kompüter nisbəti azalır

Məktəblərin internetə qoşulması və kompüter təminatı da yaxşılaşıb. 4331 məktəb artıq Azərbaycan təhsil şəbəkəsinə qoşulub. 1235 məktəb fiberoptik internetlə təchiz edilib. Təkcə bu il 403 məktəbə sürətli internet verilib. Bu il kompüter təminatı da rekord sayda, yəni 30 min olub. Növbəti il üçün bu rekordun təzələnəcəyini vəd edən nazir rəqəmin 45 minə çatdırılacağını söyləyib. Qarşıya qoyulan hədəf isə 2026-cı ilədək şagird-kompüter nisbətini 1/6-ə çatdırmaqdır. Nazir hazırda 18-20 şagirddən birinə bir kompüter düşdüyünü də xatırladıb.

### Məktəblərin istilik təchizatı yaxşılaşdırılır

5745 ümumtəhsil və məktəbəqədər təhsil müəssisəsindən 508-i dizel yanacağı ilə, 445-i elektrik enerjisi ilə, 2034-ü odunla, 20758-i isə qazla isidilir. Bu il 1652 müəssisə bu problemlə bağlı Nazirliyə müraciət edib və hamısı istilik sistemi ilə təmin edilib: “Hazırda iki tip problemimiz ola bilər. Birinci tip problem istilik sistemi qoşulduqdan sonra ortaya çıxan bəzi nasazlıqlardır ki, onların səbəbi dərhal müəyyənləşdirilərək aradan qaldırılır. Hesab edirik ki, yaxın bir neçə həftə ərzində bu cür problemlərin ortaya çıxması gözləniləndir. Çünki sistem aprel ayında dayandırılıb və noyabr ayında yenidən işə salındıqda müəyyən nasazlıqların ortaya çıxması mümkündür. İkinci tip, yəni istilik sistemi ilə bağlı ciddi problemləri olan məktəblərdir ki, onlar istisna təşkil edir. Tutaq ki, məktəbin mövcud istilik sistemi sıradan çıxıb və əsaslı təmirə ehtiyac var. Yaxud bizdən asılı olmayan, məsələ “Azəristilik”dən qaynaqlanan problemlərlə bağlı da hər hansı narahatlıq yarana bilər ki, belə vəziyyətlərdə onların tez həlli mümkün olmur”.

**Ruhiyyə DAŞSALAHLI**

# Beynəlxalq tələbə forumu yekunlaşıb



**Forum çərçivəsində Şuşaya səfər zamanı tələbələr işğaldan azad olunmuş ərazilərimizdə işğalın ağır nəticələri, dağıdılmış yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olublar**






23-28 noyabr tarixlərində Təhsilin İnkişafı Fondu və Gənclər Fondunun dəstəyi, “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə “Şuşa İli”nə həsr olunmuş “Gənclər, sülh və təhlükəsizlik” adlı beynəlxalq tələbə forumu keçirilib.

Forum 5 panel müzakirədən ibarət olmaqla xüsusi mövzuları əhatə edib. Forumda “Münaqişədən sonra bərpa: yenidənqurma, uzlaşma və sülh quruculuğu”, “Münaqişədən sonra statistika sahəsində vəziyyət: məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı və reinteqrasiyası”, “Müharibədən sonrakı vəziyyət: “Cənubi Qafqaz və digər regionlarda sülh, təhlükəsizlik və sabitlik”, “Davamlı sülh, dayanıqlı inkişaf və əməkdaşlıq”, “Münaqişə zonalarından reportajlar, sülhün bərqərar olmasında medianın rolu” mövzuları üzrə çıxışlar olub və müzakirələr aparılıb.

Forum çərçivəsində noyabrın 26-da tələbələrin Şuşaya bir günlük səfəri baş tutub. Səfər zamanı tələbələr işğaldan azad olunmuş ərazilərimizdə işğalın ağır nəticələri, dağıdılmış yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olublar.

Qeyd edək ki, forumda xüsusi komissiya tərəfindən seçilmiş “Beynəlxalq münasibətlər”, “Beynəlxalq hüquq”, “Diplomatiya” və digər əlaqəli ixtisaslar üzrə 30 fərqli ölkədən dünyanın top universitetlərində təhsil alan 40 xarici və 10 yerli tələbə iştirak edib.

# Uşaq və Ailələrə Dəstək Mərkəzi ziyarət edilib

Mingəçevir Dövlət Universitetinin (MDU) bir qrup tələbə və əməkdaşı Mingəçevir şəhərində yerləşən Uşaq və Ailələrə Dəstək Mərkəzini ziyarət edib.

MDU-nun psixologiya və pedaqogika kafedrasının müəllimləri Nərgiz Niftəliyeva və Günel Nəcəfovanın müşayiəti ilə universitetin “Məktəbəqədər təhsil” ixtisası üzrə təhsil alan üçüncü kurs tələbələri mərkəzin fəaliyyəti ilə yaxından tanış olublar. Ziyarət zamanı universitet kollektivi əqli cəhətdən zəif inkişaf etmiş xüsusi qayğıya ehtiyac duyan uşaqlara münasibətdə tətbiq olunan fərdi davranış qaydaları, təlim-tərbiyə metodları və valideynlərlə birgə işlər barədə praktiki əhəmiyyətli məlumatlar əldə edib.

Mərkəzin rəhbəri Aygün Fərruxova müvafiq pedaqoji profilli ixtisaslar üzrə təhsil alan tələbələrin uşaqların reabilitasiyası və inkişafı mərkəzlərini müntəzəm ziyarət etməsinin önəmindən danışıb, praktiki bilik və bacarıqların artırılması baxımından universitet kollektivinin bu təşəbbüsünü müsbət dəyərləndirib.

Sonra tələbələr mərkəzdə təhsil alan uşaqlarla müxtəlif oyunlar təşkil edib və birgə tapşırıqlar yerinə yetiriblər.

# UNEC ilə Azərbaycan Sığortaçılar Assosiasiyası əməkdaşlığa başlayıb



Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) arasında Əməkdaşlıq memorandumu imzalanıb.

UNEC rektoru professor Ədalət Muradov və ASA-nın icraçı direktoru Elmar Mirsalayevin imzaladığı memorandumda tələbələr arasında sığorta savadlılığının artırılması, innovativ fəaliyyətin birgə təşkili, təhsil və sığorta xidmətləri sahəsində müasir texnologiyaların və elmi inkişafın qarşılıqlı əlaqələndirilməsi, sığorta sektorunda çalışanların tədrisə cəlb olunması, birgə layihələrin hazırlanması və tədqiqatların aparılması, konfrans, təlim və seminarların təşkili nəzərdə tutulub. Sənəddə tələbələrin sığorta şirkətlərində mövcud vakant vəzifələr haqda məlumatlandırılması məqsədilə Universitetdə “Karyera günləri”nin keçirilməsi də əks olunub.

# Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkiyədə konfransın təşkilatçılarından biri oldu



Türkiyənin Burdur Mehmet Akif Ərsoy Universitetində keçirilən VI Beynəlxalq Elm və Təhsildə İnnovativ Texnologiyalar konfransının təşkilatçıları sırasında Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) də olmuşdur.

Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD) ideya müəllifi olduğu beynəlxalq tədbirdə ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov Azərbaycan üzrə sədr kimi, Universitetin Elmi Tədqiqat Mərkəzinin elmi işçisi, fəlsəfə doktoru Əlvan Cəfərov isə baş koordinator kimi təmsil olunnmuşlar. İKSAD başkanı doktor Mustafa Lətif Əmək konfrans iştirakçılarını salamlamışdır.

Konfransın plenar iclasında Mehmet Akif Ərsoy Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi bağlanmışdır. Müqaviləni Burdur Mehmet Akif Ərsoy Universitetinin rektoru professor Adəm Korkmaz və Azərbaycan Dövlət Pedaqoji Universitetinin elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov imzalamışlar.

Beynəlxalq konfransda təhsil problemlərinə həsr olunmuş 600-dək məruzə onlayn (500) və canlı (100) dinlənilmişdir.

Tədbir çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin nümayəndələri İsparta valisi Aydın Baruş və İsparta Böyük Şəhər Bələdiyyəsinin sədri Şükrü Başdəgirmən ilə görüşlər keçirmiş, ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrdən danışılmışdır.

**N.QƏDİMOĞLU**

# “Gəncliyimiz gələcəyimizdir”

Naxçıvan Müəllimlər İnstitutunda “Gəncliyimiz gələcəyimizdir” mövzusunda konfrans keçirilib.

İnstitutun rektoru Azad Novruzov konfransın əhəmiyyətinə toxunaraq gənclərin formalaşmasında və inkişafında belə tədbirlərin rolundan danışıb. Bildirib ki, müasir gəncliyin inkişafı əsas prioritetlərdəndir. Rektor gəncləri hər zaman fəal olmağa, onlar üçün yaradılan imkanlardan yararlanmağa çağırıb.

Konfransda humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacıyevin “Azərbaycan gəncliyi dövlət siyasətinin tərkib hissəsi kimi”, xarici əlaqələr üzrə mütəxəssis Günay Fərəcovanın “Beynəlxalq proqramlar çərçivəsində institutun əlaqələri və tələbələrin bu proqramlardan yararlanmaq imkanları”, ali riyaziyyat və informatika kafedrasının baş müəllimi Fidan Əzizovanın “Naxçıvan Müəllimlər İnstitutunda STEAM təhsili və START-UP layihələrinin dəstəklənməsi” və Tələbə Gənclər Təşkilatının sədri Aygül Məmmədovanın “Naxçıvan Müəllimlər İnstitutunda Tələbə Gənclər Təşkilatlarının fəaliyyəti və gələcək perspektivləri” mövzularında çıxışları dinlənilib.

Sonda institutun “Tarix müəllimliyi” ixtisası üzrə III kurs tələbəsi Abutalıb Ağa Kəngərli muxtar respublika turunda II yerə layiq görülmüş startap layihəsini təqdim edib, tələbə yoldaşlarına təcrübəsi əsasında bu fəaliyyətdə uğurlu olmağın yollarından danışıb.

# Görkəmli alimin yubileyi qeyd olunub

Həyatda elə şəxsiyyətlər var ki, fəaliyyətləri, xalq qarşısında xidmətləri onlara əbədiyaşarlıq qazandırıb. Aramızda olmasalar belə, adlarının çəkilməsi kifayətdir ki, səmərəli fəaliyyətləri, gördükləri işlər göz önündə canlansın. “Şöhrət” ordenli, Əməkdar elm xadimi, görkəmli dilçi alim, professor Həsən Mirzəyev də məhz mənalı ömrü ilə xalq sevgisini qazanaraq qəlblərdə yaşayan nüfuzlu ziyalılarımızdan biridir.





Noyabrın 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) tanınmış alimin 95 illik yubileyinə həsr olunan “Müasir Azərbaycan dilçiliyinin aktual problemləri” mövzusunda keçirilən beynəlxalq elmi konfransda da məhz onun keçdiyi ömür yolundan, həm alim, həm də ictimai xadim kimi çoxşaxəli fəaliyyətindən söz açıldı.

Tədbirdən öncə Milli Məclisin deputatları, Elm və Təhsil Nazirliyinin nümayəndələri, bir sıra ali təhsil müəssisələrinin və tədqiqat institutlarının rəhbərləri, tanınmış elm və mədəniyyət xadimləri, xarici ölkələrdən gələn alimlər, eləcə də görkəmli ziyalının yetirmələri universitetin foyesində professor Həsən Mirzəyevə həsr edilmiş sərgi ilə tanış oldular.

ADPU ilə Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD) tərəfdaşlığı ilə təşkil olunan beynəlxalq konfrans Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi və şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Giriş sözü ilə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov görkəmli alim Həsən Mirzəyevin Azərbaycan filologiya elminin inkişafındakı xidmətlərindən söz açdı. Qeyd olundu ki, Həsən Mirzəyev elmi və ictimai fəaliyyəti vəhdət təşkil edən alimlərimizdən biridir. Onun fəaliyyətinin böyük bir hissəsi məhz bu ali təhsil müəssisəsi ilə bağlıdır. Həsən müəllim burada “Müasir Azərbaycan dili” kafedrasının yaradıcısı və ilk müdiri olmuş və ömrünün sonuna qədər Pedaqoji Universitetdə müxtəlif vəzifələrdə çalışmışdır. Rektor görkəmli alimin dilçiliyin müxtəlif problemlərinə dair bir sıra sanballı tədqiqatları ilə tanındığını, xüsusən Qərbi Azərbaycanın yer adları ilə bağlı araşdırmalarının milli tariximizin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi: “Həsən Mirzəyevin yaradıcılığına nəzər saldıqda bu irsin bu gün də olduqca aktual olduğunu görürük. O, filologiya üzrə bir sıra ixtisaslı kadrların hazırlanmasında öz bilik və bacarığını əsirgəməmiş, xeyli sayda elmlər doktoru, elmlər namizədi yetişdirmişdir. H.Mirzəyevin 200-dən çox elmi əsəri, o cümlədən 25 kitabı və 10-a yaxın dərs vəsaiti işıq üzü görüb. Eyni zamanda mütəmadi olaraq bədii yaradıcılıqla məşğul olurdu. H.Mirzəyev böyük alim olmaqla yanaşı, həm də tanınmış ictimai-siyasi xadim idi. O, “91-lər” hərəkatının təşəbbüskarlarından və təşkilatçılarından biri olmuşdur. Respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edən alim iki çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilərək Təhsil, etika və toponimika komissiyasının üzvü kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir. İşlərinə məsuliyyətlə yanaşaraq fəaliyyət göstərdiyi sahələrdə yüksək peşəkarlıq nümayiş etdirmişdir”.

Fədakar alimin həyat yolundan və elmi axtarışlarından geniş söz açan rektor Həsən Mirzəyevin dövlətçilik ənənələrinə hər zaman sadiq, xalqına bağlı, vətənpərvər bir insan olduğunu diqqətə çatdırdı.

Sonra görkəmli alimin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olundu.

Çıxış üçün söz alan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Həsən Mirzəyevin şəxsiyyət, müəllim, alim, ictimai xadim kimi Azərbaycan cəmiyyətinə örnək olan bir ömür yaşadığını qeyd etdi: “Görkəmli alimin dünyagörüşünün formalaşmasında onun doğulub boya-başa çatdığı, orta təhsil aldığı, gənclik illərini yaşadığı Dərələyəz mahalının böyük rolu var. Həsən müəllimin bir şəxsiyyət olaraq tanınmasında onun mənsub olduğu şəcərənin də özünəməxsus rolu ayrıca qeyd edilməlidir. Həsən Mirzəyev, ilk növbədə, elm xadimidir. O. Azərbaycan dilçilik elminin bir çox sahələri, o cümlədən morfologiya, dil tarixi, üslubiyyat, toponomiya, onomastika ilə professional şəkildə məşğul olmuş və bu sahələrin hər birində izi qalan Azərbaycan alimlərindəndir. Professor Həsən Mirzəyev Azərbaycan dilçiliyində feil bəhsi üzrə məktəb yaratmış, monoqrafiyalar yazmışdır. Düşünürəm ki, Həsən müəllimin feili sifət haqqında yazdığı dissertasiya obrazlı şəkildə desək, Azərbaycan dilçiliyində feili sifətin dəqiq elmi sifətidir”.

Həsən müəllimin dilçilik elminin müxtəlif sahələri ilə yanaşı, ədəbiyyatşünaslıq sahəsində də öz sözünü demiş görkəmli alimlərdən biri olduğunu söyləyən AMEA-nın prezidenti onun Dərələyəz folkloruna həsr etdiyi tədqiqatlarının dilçi olduğu qədər də nüfuzlu folklorşünas bir alim olmasına nümunə olduğunu dedi: “Dil və folklor müstəvisində şifahi xalq ədəbiyyatını Dərələyəz folklorunun timsalında tədqiq edib araşdıran və nəticələr çıxaran Həsən Mirzəyev ilk dəfə Azərbaycan folklorunun linqvistik fonetikasını meydana qoymuşdur. Həsən Mirzəyev həm də ictimai-siyasi xadim kimi də uğurla fəaliyyət göstərirdi. Ulu öndər Heydər Əliyevin sədaqətli silahdaşlarından biri olaraq YAP-ın yaradılmasında və təşkilatlanmasında mühüm xidmətlər göstərib. Milli Məclisin deputatı kimi Azərbaycanın ictimai- siyası həyatında öz mövqeyi ilə tanınan şəxslərdən biri olmuş, ölkə başçısı İlham Əliyevin müstəqil Azərbaycan naminə apardığı qətiyyətli mübarizəyə sədaqətlə xidmət etməyin nümunəsini göstərmişdir”.

İsa Həbibbəyli Həsən Mirzəyevin elmi fəaliyyətinin gənc alimlər üçün dəyərli bir irs olduğunu qeyd etdi.

Konfransda daha sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Bəxtiyar Əliyev, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı akademik Kamal Abdulla, Milli Məclisin üzvü, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Əməkdar elm xadimi akademik Nizami Cəfərov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədli çıxış edərək Azərbaycan dilçilik elminin tədqiqində, ümumən filologiya və türkologiya elmində dərin izlər buraxmış Həsən Mirzəyevin elmi əsərlərinin öz aktuallığı ilə bu gün də tələbələr, tədqiqatçılar, xüsusən də gənc alimlər üçün əsl mənbə olduğunu vurğulamaqla yanaşı, deputat kimi səmərəli fəaliyyətindən, onunla ünsiyyətdə olmaqlarından məmnunluqlarını ifadə edərək görkəmli alimlə bağlı xatirələrini bölüşdülər.

Çıxışlarda həmçinin professor Həsən Mirzəyevin elmi, ictimai-siyasi fəaliyyətinin Azərbaycançılıq konseptindən danışıldı, alimin yaşadığı dövrün siyasi qadağaları və üzləşdiyi təhlükələrdən qorxmayaraq qədim türk-oğuz yurdunu —indiki Ermənistanı Qərbi Azərbaycan adı kimi elmi ictimaiyyətə çatdırdığı qeyd olundu. İctimai-siyasi fəaliyyətinin başlıca qayəsini Azərbaycançılıq, türkçülük ideyaları təşkil edən Əməkdar elm xadimi, “Şöhrət” ordenli Həsən Mirzəyevin çox geniş spektrli fəaliyyətinin ana xəttinin isə məhz dilçilik araşdırmalarının olduğu diqqətə çatdırıldı.

Konfransın işində iştirak edən Türkiyənin Qazi Universitetinin professoru Hülya Kasaboğlu, Fırat Universitetinin professoru Ahmet Buran, Özbəkistan Dövlət Şərqşünaslıq Universitetinin Türkologiya fakültəsinin dekanı dosent Cumali Şabanov Azərbaycan dilçilik elminin tədqiqində özünəməxsus yeri və rolu olan Həsən Mirzəyevin bir alim kimi fəaliyyətini yüksək dəyərləndirdilər.

Türkiyənin Kafkas Universiteti Çağdaş Türk Ləhçələri və Ədəbiyyatları Bölümünün dosenti İlkin Qulusoy magistrantı Səma Şahinlə bərabər hazırladıqları, professor Mahirə Hüseynovanın redaktoru olduğu Həsən Mirzəyevin 95 illiyinə ithaf olunmuş “Karşılaştırmalı deyimbilimi” (“Müqayisəli frazeologiya”) əsərini konfrans iştirakçılarına təqdim etdi.

ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri professor İbrahim Bayramovun “Görkəmli dilçi alim professor Həsən Mirzəyev” mövzusunda geniş məruzəsi dinlənildi.

Çıxışlardan sonra təşkilat komitəsi adından konfransın təşkilindəki xidmətlərinə görə ADPU-nun rektoru professor Cəfər Cəfərov, adıçəkilən ali təhsil müəssisəsinin prorektorları professorlar Mahirə Hüseynova, Asəf Zamanov, Ahmet Duran, Hülya Kasaboğlu, Cumali Şabanov, İlkin Qulusoy və Gürcüstan Dövlət Universitetinin professoru Elizabet Bjalava mükafatlandırıldı.

Konfransın sonunda professor Həsən Mirzəyevin oğlu Mərkəzi Dəmiryol Xəstəxanasının baş həkimi Müşfiq Mirzəyev çıxış edərək atasının əziz xatirəsinə göstərdikləri yüksək diqqətə görə ADPU-nun rəhbərliyinə və elmi ictimaiyyətə özünün və ailəsi adından təşəkkürünü bildirdi.

Sonra beynəlxalq elmi konfrans öz işini bölmə iclaslarında davam etdirdi. İki gün davam edən konfransda canlı və onlayn formada Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Hindistan, Gürcüstan və Nigeriyadan alim və pedaqoqlar qatılmaqla 150-dən artıq məruzə dinlənildi.

**Samirə KƏRİMOVA**

# “Ali təhsildə dəyişikliklər: yeni tendensiya və tətbiqlər” mövzusunda seminar

Noyabrın 25-də Türkiyənin TED Universitetinin rektoru İhsan Sabuncuoğlunun “Ali təhsildə dəyişikliklər: yeni tendensiya və tətbiqlər” mövzusunda seminarı keçirilib. Seminar Təhsilin İnkişafı Fondunun təşəbbüsü, Azərbaycan Texniki Universitetinin (AzTU) təşkilati dəstəyi ilə baş tutub.

AzTU-nun rektoru Vilayət Vəliyev qonaqları salamlayaraq seminar çərçivəsində “Universitet-sənaye əməkdaşlığı”, “Müəllim-tələbə münasibətləri”, “Tədrisin keyfiyyəti və tədqiqatların sənayeyə tətbiqi”, eləcə də “Gələcəyin universitetləri necə olacaq?” mövzularına toxunulacağından bəhs edib.

Daha sonra Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov Fondun əsas məqsəd və fəaliyyət istiqamətləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Seminar İhsan Sabuncuoğlunun təqdimatı əsasında davam etdirilib.

Təqdimatın birinci hissəsində rektor “Ali təhsildə qlobal trendlər və tətbiqlər” mövzusunda çıxış edib. İkinci hissədə isə “Azərbaycanda ali təhsil və universitet-sənaye əməkdaşlığı” adlı tədqiqat mövzusundan danışılıb.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb və interaktiv müzakirələr aparılıb.



# “146” Çağrı Mərkəzinin fəaliyyət sahəsi genişləndirilir

Elm və Təhsil Nazirliyi “146” Çağrı Mərkəzinin yeni fəaliyyət istiqamətlərini vətəndaşların istifadəsinə təqdim edir. Belə ki, mövcud istiqamətlərə Elm və Təhsil Nazirliyinin Abşeron-Xızı, Gəncə-Daşkəsən və Mərkəzi Aran Regional Təhsil idarələrinin çağrı mərkəzləri əlavə olunub.

Qeyd olunan regional təhsil idarələri ilə əlaqə yaratmaq istəyən vətəndaşlar Abşeron-Xızı üçün 146-0-1, Gəncə-Daşkəsən üçün 146-0-2, Mərkəzi Aran üçün isə 146-0-3 nömrələrinə zəng edə bilərlər.

Sözügedən regional təhsil idarələrinin fəaliyyətə başlayan çağrı mərkəzləri yalnız həmin regiona daxil olan təhsil müəssisələri ilə bağlı vətəndaş müraciətlərini cavablandırmaq üçün nəzərdə tutulub.

# Paytaxt məktəbində filmin təqdimatı



Bakı şəhər R.Əliyev adına 3 nömrəli tam orta məktəbin IX, X və XI sinif şagirdləri üçün unudulmaz bir gün oldu. Dekabrın 1-də, Laçının Ermənistanın işğalından azad edilməsinin ikinci ildönümündə Şuşa şəhərinin 270 illiyinə həsr edilmiş “Şuşanın 270 anı” adlı filmin təqdimatı oldu.

Filmi Xəzər TV-nin tanınmış jurnalisti, özünün milli-vətənpərvər mövqeyi ilə seçilən peşəkar təmsilçisi Lalə Azərtaş təqdim edib.

Təqdimatın açılışında çıxış edən məktəbin direktoru, Əməkdar müəllim Almaz Həsrət vurğulayıb ki, Azərbaycanın göz bəbəyi olan Şuşa artıq iki ildən çoxdur ki, düşmən işğalından azad edilib. Elə bir azərbaycanlı olmaz ki, Şuşa adı gələndə həyəcanlanmasın. Direktor qeyd edib ki, təqdimatı gerçəkləşən film də bu baxımdan müəllimlər və şagirdlər üçün yaddaqalan olacaq.

Daha sonra filmin müəllifi Lalə Azərtaş çıxış edərək deyib ki, film Cəmiyyətin və Medianın İnkişafı İctimai Birliyinin məhsuludur. Şuşanın 270 illiyinə ərməğan edilən filmin çəkilməsi Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə mümkün olub.

Lalə Azərtaş filmin çəkilişi ilə bağlı ayrıntılar haqqında da qısa bilgi verib. O, çəkiliş zamanı yaşadığı duyğuları məktəb kollektivi ilə paylaşıb.

Bundan sonra film təqdim edilib.

Ekran əsəri şagirdlər və müəllimlərin duyğulu anlar yaşamasına səbəb olub. Sonda sürəkli alqışlarla qarşılanan film Azərbaycanın müqəddəs və əzəli bir yurd yerini düşmən tapdağından azad etməsinin önəminə işıq tutub.

Filmə baxışın ardından Lalə Azərtaş və Almaz Həsrət fikirlərini paylaşıblar.

Təqdimatda BAYRAQDAR MEDİA-nın baş redaktoru, Əməkdar jurnalist Azər Həsrət filmə baxdıqdan sonra fikirlərini paylaşıb, Lalə Azərtaşın bir jurnalist və vətəndaş kimi istər 44 günlük savaşa qədər, istər savaş günlərində, istərsə də savaşdan sonra informasiya cəbhəsində yorulmadan çalışdığını vurğulayıb.

Azər Həsrət eyni zamanda şagirdlərlə fikirlərini paylaşıb, Müzəffər Ali Baş Komandanın qətiyyəti və igid Azərbaycan oğullarının canıqanı hesabına torpaqların düşmən tapdağından azad edildiyini bildirib.

Bundan sonra bədii hissə olub. Məktəbin şagirdlərinin bir-birindən gözəl ifaları, rəqsləri qonaqların, şagird və müəllimlərin alqış və rəğbəti ilə qarşılanıb.

# Naxçıvan Müəllimlər İnstitutunda “dəyirmi masa”

Naxçıvan Müəllimlər İnstitutunda “IV sinif riyaziyyat dərslərində qeyri-standart məsələlərin həllində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları”na həsr edilən “dəyirmi masa” keçirilib.

“Dəyirmi masa”da institutun riyaziyyat və onun tədrisi metodikası kafedrasının professor-müəllim heyəti, “İbtidai sinif müəllimliyi” ixtisası üzrə bir qrup tələbə, ümumtəhsil məktəblərindən 30 ibtidai sinif müəllimi iştirak edib.

İnstitutun ixtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Həbibə Allahverdiyeva çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə təşkil olunan “dəyirmi masa”nın keçirilməsinin əsas məqsədi ibtidai siniflərdə riyaziyyat fənninin tədrisində, o cümlədən IV sinif riyaziyyat dərslərində qeyri-standart məsələlərin həllində qarşıya çıxan çətinliklərin aradan qaldırılmasının səmərəli həlli yollarını tapmaq, bu üsul və vasitələri dərslərdə tətbiq edərək tədrisin keyfiyyətini yüksəltməkdən ibarətdir.

Sonra riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, professor Yaqub Məmmədovun, kafedranın dosenti Südabə Məmmədovanın mövzu ətrafında çıxışları dinlənilib. Ali təhsil ocağı və ümumtəhsil məktəblərinin müəllimləri ilə maraqlı müzakirələr, təcrübə mübadiləsi aparılıb.

# Əcnəbi tələbələrlə görüş keçirilib



2022-2023-cü tədris ilində Azərbaycan Respublikasının təhsil qrantı proqramları çərçivəsində ölkəmizdə təhsil almaq hüququ qazanmış bir qrup İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları ilə görüş keçirilib. Görüş Elm və Təhsil və Xarici İşlər nazirliklərinin aidiyyəti struktur bölmələrinin rəhbər və məsul şəxslərinin iştirakı ilə baş tutub.

Görüşdə təhsil qrantı qalibləri ilə yanaşı, onların təhsil aldığı Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dillər Universiteti, ADA Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Bakı Mühəndislik Universiteti və Xəzər Universitetinin nümayəndələri də iştirak ediblər.

Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov, şöbənin sektor müdiri Müjdat Həsənov və Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım İdarəsinin (AIDA) rəis müavini Aliyə Ağazadə görüş zamanı təhsil qrantı proqramlarına dair zəruri məlumatları əcnəbi tələbələrlə bölüşüb və onların suallarını cavablandırıblar.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə təsis edilmiş təhsil qrantı proqramları çərçivəsində yerli təhsil müəssisələrində əcnəbi tələbələr təhsil alır. Belə ki, 2018-2022-ci illər çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün ayrılmış 200-ə yaxın təqaüd proqramı çərçivəsində yerli təhsil müəssisələrində əcnəbi tələbələr bakalavriat, baza ali tibb təhsili, magistratura, rezidentura, doktorantura səviyyələri üzrə təhsil almaq hüququ qazanıblar. Təhsil qrantı dövlət hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, aylıq təqaüd, tibbi yardım və beynəlxalq nəqliyyat xərclərini əhatə edir.

2022-2023-cü tədris ilində yerli ali təhsil müəssisələrində 40 tələbə təhsil qrantı çərçivəsində təhsil almaq imkanı əldə edib.

# Macarıstanda oxuyan tələbələrin nəzərinə!

8 dekabr 2022-ci il tarixində saat 10:00-12:00-da Elm və Təhsil Nazirliyinin nümayəndə heyətinin Macarıstanda təhsil alan HTP tələbələri və məzunları ilə Budapeşt şəhərində görüşü nəzərdə tutulub.

Görüşün məqsədi tələbə və məzunlarla əlaqələri möhkəmləndirmək, onların akademik uğurları və gələcək fəaliyyətləri ilə bağlı fikir mübadiləsi aparmaqdır. Görüş Azərbaycanın Macarıstandakı səfirliyində təşkil ediləcək.

Yerlərin məhdudluğunu nəzərə alaraq, qeydiyyatdan keçən ilk 70 nəfər görüşdə iştiraka dəvət ediləcək.



# Məktəb mühiti uşaqları xoşbəxt edə bilirmi?



Məktəb mühiti daim hərəkətdə olan, dəyişən, yeniləşən canlı orqanizmdir. Bu baxımdan, məktəblərə hər səfərdə yenilikləri görmək, məktəb idarəetməsində iştirak edən şəxslərlə, müəllim, şagird və valideynlərlə müzakirələr olduqca maraqlı və əhəmiyyətli amilləri üzə çıxarır, atılan addımların nəticələrini daha aydın görməyə imkan verir.

## Keyfiyyətli təhsil yalnız bilik və bacarıqların, səriştələrin deyil, həm də dəyərlərin formalaşdırılmasıdır



**Mehriban VƏLİYEVA,**
*Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri*

Hər həftə ən az iki-üç dəfə səhər tezdən işə gələrkən yolumu paytaxtın ümumi təhsil müəssisələrindən salıram. Öncədən planlaşdırılmayan bu səfərlərimin məqsədi məhz məktəblərdəki mühitlə tanışlıq, məktəbin tədris şəraitinin, ordakı ab-havanın, mövcud durumun izlənməsi, daha dəqiq desək, monitorinqlər aparmaqdır. Bu ziyarətlərimdə məktəb rəhbərliyi, müəllimlər və şagirdləri maraqlandıran mövzular ətrafında söhbətlərimiz olur, tətbiq olunan yeniliklər, qarşıdakı planlarla bağlı fikir mübadiləsi aparırıq. Hesab edirəm ki, kollektivin fikirlərini dinləmək, problemlərlə yerində tanış olmaq xoşbəxt uşaqların yetişdirilməsi, tədris nailiyyətləri ilə yanaşı, məktəb-valideyn münasibətləri və sağlam məktəbdaxili mühitin formalaşdırılması baxımından da olduqca əhəmiyyətlidir. Onu da bildirim ki, təhsili idarəetmə qurumları rəhbərlərinin məktəblərə öncədən planlaşdırılmayan səfərləri, müəllim, şagird və valideynlərlə belə görüş və müzakirələr maraqla qarşılanır.

Daha çox müşahidə xarakteri daşıyan bu monitorinqlər zamanı ortaya çıxan bəzi nüansları qeyd etmək istərdim. Məktəbə getməmişdən öncə səfərimin məqsədini müəyyənləşdirirəm ki, getdiyim məktəbdə nələrə diqqət edəcəyəm. Diqqətimdə olan əsas üç məsələ var ki, onlardan birincisi məktəbin səliqə-sahmanı, ikincisi oradakı psixoloji mühit, üçüncüsü isə tədris prosesinin təşkili məsələsidir.

Məktəbə daxil olanda diqqət etməyə çalışıram ki, qarşılaşdığım şagirdlər tanımadığı şəxsə salam verəcəkmi? Təhsil ocağı şagirdlərdə tanımadığı biri olsa belə, ona salam vermək mədəniyyətini formalaşdıra bilibmi? Müşahidələrimə əsasən deyə bilərəm ki, məktəbə daxil olarkən onun astanasından səliqə-sahmanı, həmçinin dəhlizdə gəzərkən müəllim və şagirdlərin bir-birinə münasibəti, sinfə girərkən şagirdlərin üzündəki ifadə məktəbdəki mühitdən xəbər verir. O ifadə özü bəlli edir ki, sinifdə öyrənmə mühiti var, yoxsa yox? Uşaqlar özlərini məktəbdə xoşbəxt hiss edə bilirmi? Qeyd etdiyim bu nüansları məktəblərdə müşahidə edə biliriksə, deməli normal təhsil mühiti formalaşdırılıb və keyfiyyətli tədrisin uğurlu nəticələrini görə biləcəyik.

Sual oluna bilər ki, keyfiyyət deyəndə nəyi nəzərdə tuturuq? Bizim keyfiyyət yanaşmamız nədən ibarətdir? Keyfiyyətli dərs, ilk növbədə, dövlətin müəyyənləşdirdiyi standartları reallaşdıran dərsdir, daha doğrusu, keyfiyyətli dərsin sütunu, özülüdür. Keyfiyyətli dərsin fəlsəfəsində düşündürən dərs anlayışı dayanır. Gələcəyin düşünən insanını formalaşdıran, yetişdirən dərs keyfiyyətli dərsdir. Başqa sözlə desək, yaddaşdan təfəkkürə keçid edə bilən dərs keyfiyyətli adlanır. Bu, həm də şagird nailiyyətlərində özünü göstərir. Keyfiyyət öyrənmə prosesi ilə düz mütənasib təşkil etməlidir. Əgər öyrənmə prosesi yoxdursa, orda keyfiyyətli dərsdən söhbət gedə bilməz.

Dərsin keyfiyyətini təmin edən amillərdən biri də məqsəddir. Əgər məqsəd yoxdursa, keyfiyyətə nail olmaq mümkün olmayacaq. Hər bir öyrədən dərs prosesi zamanı bu sualı özünə verməlidir ki, “mən kimi və nəyi öyrədirəm, eyni zamanda necə və niyə öyrədirəm?”. Müəllim bu sualların cavabını mütləq şəkildə bir məqsəd olaraq qarşısına qoymalıdır. Unutmamalıyıq ki, qarşımızdakı şagird dünənin şagirdi olmadığı kimi, valideynlər də fərqlidir. Tədris prosesində müəllim qarşısında oturan şagirdlərin fərqli olduğunu nəzərə alaraq müxtəlif metodik vasitə və üsullardan istifadə etməlidir. Hər bir şagirdə fərdi yanaşma, açarlar və alətlər müxtəlif olmalıdır. Öyrədənlər uşaqları düşündürmək üçün hansı alətlərdən istifadə etmək lazım olduğunu bilməlidirlər. Bütün bunları nəzərə alaraq düzgün münasibətlərin qurulması, yeni nəsli düzgün tanıyaraq doğru yanaşmanın müəyyən edilməsi olduqca vacibdir. “Nəyi öyrədirik?” sualı ətrafında isə, əlbəttə məzmun məsələsi dayanır. Müasir dövrün tələblərinə uyğun məzmunu müəyyənləşdirmək çox əhəmiyyətli bir məsələdir. Çünki məzmun müasir dövrün tələbinə cavab vermirsə və həyati bacarıqları aşılamağa qadir deyilsə, onun heç bir əhəmiyyəti yoxdur.

Yaradıcılıq imkanlarının genişlənməsi üçün şəraitin yaradılması da vacib şərtlərdəndir. Dünyaca məşhur təhsil tədqiqatçısı Andreas Şleyxer “Dünya standartları: XXI əsrin məktəbini necə qurmalı” kitabında da qeyd edir ki, biz daha çox istedada, qabiliyyətə söykəndiyimiz halda asiyalı müəllimlər daha çox zəhmətə önəm verirlər. Şagirdə “sən bunu bacarmazsan, bu, sənin üçün çətindir” demək onun bütün potensialını, həvəsini məhv etmək deməkdir. Yaxud müəllim uşağın valideyninə “sizin övladınızın istedadı, bacarığı yoxdur, öyrənə bilmir” əvəzinə, uşaq haqqında yüksək fikirdə olmalı, onun bacara biləcəyinə, daha yaxşı nəticələr qazanacağına əminlik yaratmalıdır. Yəni şagirdin istedad qapısını hər tərəfdən açmağa çalışmalıyıq.

Keyfiyyətli təhsil yalnız bilik və bacarıqların, səriştələrin deyil, həm də dəyərlərin formalaşdırılmasıdır. Elə dəyərlər var ki, onlar ölçüləbilən deyil. Vətənpərvərlik, Vətən sevgisi kimi. Bu dəyəri formalaşdıran, özülünü qoyan isə ailə ilə bərabər məktəbdir. Vətən müharibəsində biz bunun bir daha şahidi olduq. Şanlı Zəfərimiz göstərdi ki, təhsil ocaqlarımız vətənpərvər gənclər tərbiyə edə bilib. Ola bilsin ki, bir zamanlar tarix dərsindən müvəffəqiyyət göstəricisi o qədər də yüksək olmayan biri döyüş meydanındakı şücaəti, torpağı üçün canını qurban verməsi ilə Vətən sevgisinin dəyərinin nə qədər yüksək olduğunu göstərdi, ən şərəfli tarix yazdı.

Bir sözlə, təhsildə keyfiyyətə nəzarət məqsədilə aparılan, bir növ yoxlayıcı və dəstəkləyici monitorinqlərin təşkili, prosesin təhlili, təhlillərdən sonra isə strategiyanın müəyyənləşdirilməsi və mövcud problemlərin aradan qaldırılması üçün həyata keçirilən işlər ümumi prosesin bir-birinə bağlı olan halqalarıdır. Düşünürəm ki, keyfiyyətli insan kapitalının hazırlanması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoji heyətin inkişafı və motivasiyası kimi prioritet strateji istiqamətlər də təhsilin gələcək inkişafı üçün qarşıya qoyulan məqsədlərdəndir.

Hər bir xalqın rəqabətə davamlılığı, ümidli gələcəyi bilavasitə təhsil sahəsində qazanılan nailiyyətlərlə bağlıdır. BMT tərəfindən XXI əsrin “Təhsil əsri” elan edilməsi əslində bütün bəşəriyyətə ünvanlanmış bir mesajdır. Çünki danılmaz reallıqdır ki, inkişafın mənbəyində yalnız təhsil, təhsilli cəmiyyət dayanır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, “Təhsilli insan nə qədər çox olarsa, ölkəmizin intellektual potensialı da o qədər çox artacaq”.

Təhsil sahəsi ölkənin inkişafını müəyyənləşdirən əsas sahə olduğundan cəmiyyətin gələcəyi də daha çox biz müəllimlərdən, təhsil işçilərindən asılıdır. Məktəb nə qədər keyfiyyətli təhsil, hərtərəfli tərbiyə verəcəksə, cəmiyyətimiz, dövlətimiz də bir o qədər güclü və qüdrətli olacaq. Çünki uşaq məktəbdə necə formalaşacaqsa, elə də vətəndaş olacaq.

Azərbaycanın indiki böyük quruculuq və böyük qayıdış dövründə hərtərəfli yetişmiş vətəndaşa olan ehtiyac daha aydın şəkildə özünü büruzə verir. Bu mənada təhsil işçilərinin, təhsil ocaqlarının müqəddəs missiyası bu gün dünənkindən daha aktual, daha gərəklidir. Bu dəyərləri qəbul edən, qoruyan, reallaşdıran hər bir müəllim, həm səmərəli məktəb mühitinin, həm də ölkəmizin xoşbəxt gələcəyinin qurucuları kimi sabaha daha nikbin baxır...

**Şanlı Zəfərimiz göstərdi ki, təhsil ocaqlarımız vətənpərvər gənclər tərbiyə edə bilib**



# Elmin inkişafında təhsilin rolu

Müasir dünyada ölkələrin qlobal rəqabətdə mövqeyini gücləndirən mühüm faktorlardan biri elmi ekosistemin qurulması, elmi tədqiqatlara investisiyaların artırılması, tədqiqatçılıq fəaliyyətlərinin stimullaşdırılması ilə bağlıdır. Son illər bu sahədə aparılan işlərin səviyyəsi bir sıra ölkələr arasında rəqabəti daha da gücləndirmişdir. Bu baxımdan, ölkəmizdə elmi tədqiqat işlərinin səmərəliliyinin artırılması ciddi məsələlərdən biridir. Artıq 25-ci dəfədir ki, keçirilən doktorantların və gənc tədqiqatçıların respublika elmi konfransı da, ümid edirik ki, bu sahədə mövcud təşəbbüslərə növbəti töhfədir. Konfransın "Şuşa İli"nə həsr olunması həm təşkilatçılar, həm iştirakçılar, bütövlükdə isə təhsil və elmi ictimaiyyətimiz üçün qürurverici məqamdır. Konfrans elm və təhsil həyatımız üçün bir sıra əhəmiyyətli və aktual çağırışlarla yadda qaldı.

## Doktorant və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı

### "Gənc alimlərin inkişafı üçün münbit şəraitin yaradılması çox təqdirəlayiqdir"




**Günay KAZIMZADƏ,**
*Berlin Texniki Universitetinin doktorantı*

- Elm və təhsil hər bir zaman iqtisadiyyatın başlıca drayveri, sosial inkişafın əsas təkanverici qüvvəsi olmuşdur. Son 5 ildə Alman İnternet İnstitutunda apardığımız multikontinental, multidissiplinar, kollaborativ tədqiqatın nəticəsi olaraq bu gün həm istinad platformalarına, həm cəmiyyətə təsir, həm də tədqiqatların kommersiyalaşdırılması faktoruna əsasən deyə bilərik ki, təhsilə və elmə qoyulan investisiya hər zaman eksponensial olaraq ölkənin rifahına müsbət təsir göstərir.

Noyabrın 23-də Təhsil İnstitutu və Bakı Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransının (NASCO XXV) açılış mərasimində çıxış etmək imkanım oldu. Elm və təhsil nazirinin və digər çıxışçıların nitqlərindən yola çıxaraq deyə bilərəm ki, ölkəmizdə elmin inkişafı hazırda ən başlıca prioritetlərdən biridir. Ölkəmizin ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının sıx əməkdaşlığı sayəsində gənc alimlərin inkişafı üçün münbit şərait yaradılması çox təqdirəlayiq haldır və biz gənc tədqiqatçılar və doktorantlar bu yolda elm fədailəri olaraq hər zaman töhfələr verməyə, beynəlxalq təcrübələri paylaşmağa və uzunmüddətli perspektivlərdə bu ekosistemin inkişafı üçün əlimizdən gələni etməyə hazırıq.

### "Konfransdan elmi fayda və ideyalar qazandım"




**Könül QƏHRƏMANOVA,**
*akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun doktorantı*

- İngilis filosof və sosioloqu Herbert Spenserin dediyi kimi, elm təşkilatlanmış bilikdir. Əldə olunan bilik və bacarıqların düzgün istiqamətləndirilməsi üçün elmlə təhsilin vəhdətinə universitetlərlə yanaşı, orta məktəblərdə də nail olmaq lazımdır. Bunun üçün xüsusi istedadlı uşaqları axtarıb elmə yönləndirmək, məktəblərdə müxtəlif elmi müsabiqələrin, fənn gecələrinin, elm günlərinin və sair həvəsləndirmə tədbirlərinin keçirilməsi zəruridir. Eyni zamanda tədqiqat institutlarının əməkdaşlıq etdikləri ali təhsil müəssisələrində elmə böyük marağı olan istedadlı tələbələrlə müasir və aktual mövzularda birgə elmi seminarlar, interaktiv müzakirələr, konfrans, kitab sərgisi, "dəyirmi masa"lar, elmi-praktiki seminarlar, açıq elmi-populyar mühazirələr, debatlar, master klasslar, məlumatlandırma sessiyaları, treninqlər təşkil edilməlidir.

Bütün bu məsələlərin həll və müzakirəsinin aparıldığı tədbirlərdən biri də doktorant və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı oldu. Yüksək səviyyədə təşkil olunan konfransda bir çox elm və təhsil sahəsində fəaliyyət göstərən gənclərin, akademiklərin, alimlərin iştirakının gələcəkdə gənc alimlərin müştərək yerli və beynəlxalq tədqiqat qruplarına qoşulmalarında böyük köməyi ola bilər. Son illər ən mühüm elmi nailiyyətlərin, elmi kəşf və ixtiraların ayrı-ayrı elmlərin sərhədlərində baş verdiyini nəzərə alsaq, aparılacaq müştərək tədqiqatlar zamanı multidissiplinar (fənlərarası) mövzulara geniş yer vermək, aparılan işlərin, əldə olunan nailiyyətlərin tanıdılması üçün bu cür tədbirlərin keçirilməsi çox önəmlidir. Elm və təhsil sahəsində çalışan bu qədər insanın bir yerə toplanması, birgə fəaliyyətə doğru addımlaması, bölmə iclaslarında yüksək səviyyədə elmi diskussiyaların aparılması belə elmi tədbirlərin sayının çoxaldılması zərurətini ortaya çıxarır. Bir doktorant olaraq belə konfransda çıxış və iştirak etməkdən böyük zövq aldım, digər gənc tədqiqatçıların apardığı elmi işlərlə tanış oldum, elmi fayda və yeni ideyalar qazandım.

Konfransda elm və təhsil naziri Emin Əmrullayevin maraqlı və fərqli çıxışı, elmdə olan çətinlik və problemlərə diqqət çəkməsi və bütün səylərin Azərbaycan elm və təhsilinin tərəqqisinə yönəldiyini vurğulaması yaxın gələcəkdə elmi nailiyyətlərimizin, təhsildəki uğurlarımızın dünya səviyyəsində yer tutacağına inamımızı daha da artırdı.

**Oruc MUSTAFAYEV**

### Gözlənilən nəticələr, qarşıdakı hədəflər



**Abutab ABBASOVA,**
*Təhsil İnstitutunun İnnovasiyalar şöbəsinin müdiri*

Cari ilin 23-24 noyabr tarixlərində Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ) təşkilatçılığı ilə Doktorant və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı (NASCOXXV) Bakı Ali Neft Məktəbində baş tutmuşdur. Konfransın keçirilməsində əsas məqsəd doktorantların və gənc tədqiqatçıların apardıqları elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaqdan ibarət olmuşdur. Konfrans Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin də iştirak etdiyi açılış mərasimi ilə başlamış, panel müzakirə və sessiya ilə davam etmiş, iki gün ərzində keçirilən bölmə iclaslarının nəticələrinin müzakirə olunduğu bağlanış mərasimi ilə sonlanmışdır. Açılış mərasimində nazir Emin Əmrullayev tərəfindən növbəti il elmin inkişafına töhfə vermək üçün, xüsusilə ali təhsil və elmi-tədqiqat müəssisələri arasında əməkdaşlığın artırılması istiqamətində tədbirlərin görüləcəyi bildirilmişdir. Digər spiker qonaqlar tərəfindən isə xarici təcrübə barədə məlumat verilmiş, mövcud vəziyyəti yaxşılaşdırmaq üçün görülən və planlaşdırılan işlər barədə müzakirələr aparılmışdır. Bu məqsədlə Təhsil İnstitutu tərəfindən göstəriləcək dəstək haqqında elan verilmişdir.

Açılış mərasimində təşkilat komitəsinin sədr müavini, ARTİ-nin direktoru Rüfət Əzizovun da öz nitqində qeyd etdiyi kimi, konfransa 453 nəfər tərəfindən ilkin müraciət daxil olmuşdur, onlardan 240 nəfərinə müxtəlif səbəblərə (155 texniki cəhətdən uyğunsuzluğa, 23 plagiata, 62 elmi komitəsinin məqbul hesab etməməsinə görə) görə imtina verilmişdir. Qəbul alan 213 tezisin 16%-i ingilis dilində, digərləri isə Azərbaycan dilində olmuşdur. Konfrans məruzəçiləri 54 müəssisəni (26 yerli ali təhsil müəssisəsi, 21 elmi-tədqiqat müəssisəsi, 5 xarici ali təhsil müəssisəsi, 2 digər müəssisə) təmsil etmişdir. Ən çox tezislərin qəbul aldığı müəssisələr sırasında isə Bakı Dövlət Universiteti (40 tezis), Azərbaycan Dillər Universiteti (27 tezis), Azərbaycan Respublikasının Təhsil İnstitutu (19 tezis), Azərbaycan Dövlət İqtisad Universiteti (8 tezis), Sumqayıt Dövlət Universiteti (8 tezis), İstanbul Universiteti (7 tezis), Qərbi Kaspi Universiteti (6 tezis), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (6 tezis) yer almışdır. Qəbul alan müraciətçilərin 71%-i qadınlardan, 29%-i kişilərdən ibarət olmuşdur.

Hər il keçirilən bu elmi konfrans ölkəmizdə elm cəmiyyətinin formalaşdırılmasına xitab edir və bu sahədə fəaliyyət göstərən şəxslərin bir-biri ilə əlaqələrini möhkəmləndirməyi hədəfləyir. Belə ki, müxtəlif elm sahələrindən olan şəxslərin öz sahələrindəki gənc tədqiqatçıların işləri ilə yanaşı, digər sahələrin bölmə iclaslarında dinləyici kimi iştirakı multidissiplinar yanaşma üçün şərait yaratmışdır. Bu, ölkəmizdə müxtəlif elm sahələrinin gücünü birləşdirərək yaranan elmi problemlərə daha innovativ və yaradıcı həll yolu tapmaq cəhətdən əhəmiyyət daşıyır. Bu il keçirilən konfransda isə 600-dən çox elmlə maraqlanan şəxs 8 fərqli bölmədə (Riyaziyyat və İKT; Tibb elmləri; Təbiət elmləri; Mühəndislik; Filologiya və mədəniyyətşünaslıq; Tarix, Fəlsəfə, Hüquq, Siyasi elmlər və sosiologiya; Pedaqogika və psixologiya; İqtisadiyyat və idarəetmə) yeniliklərlə tanış olmuşdur. Qeyd etmək lazımdır ki, ən çox müraciət alan bölmələr olaraq sosial və humanitar (Filologiya və mədəniyyətşünaslıq; Tarix, fəlsəfə, hüquq, siyasi elmlər və sosiologiya), ən az müraciət alan bölmələr olaraq isə Mühəndislik, Riyaziyyat və İKT, Tibb elmləri bölmələrini misal göstərmək olar. Konfransda məruzə üçün qəbul alan şəxslərin 94%-i öz təqdimatları ilə çıxış etmiş, bölmə rəhbərlərinin qərarı ilə isə 37 nəfər xüsusilə fərqlənmişdir.

Konfrans zamanı bölmə iclaslarında bölmə rəhbərləri tərəfindən məruzəçilərə öz işlərini daha da təkmilləşdirmək üçün rəylər verilmişdir. Həm bölmə rəhbərlərinin hesabatı, həm də kənar müşahidələr əsasında konfransdakı işlərin keyfiyyətinin növbəti illərdə artırılması üçün bəzi təkliflər irəli sürülmüşdür. Belə ki, konfransa məruzə etmək üçün müraciət edən şəxslərin CV-lərində ciddi qüsurlar aşkar olunmuşdur. Qoyulan qaydalara əməl etmədən olunan müraciətlərin sayının çoxluğu müəyyən gecikmələrə gətirib çıxartmışdır. Tezislərin akademik dil qaydalarına riayət etməməsi və tələb kimi qoyulan APA stilinə uymaması digər müəyyən olunan çatışmazlıqlardandır. Konfransda iştirakçıların hazırladıqları təqdimatlar və etdikləri məruzələr nəticəsində müvafiq bacarıqlarının zəif olduğu aşkarlanmışdır. Tezis mövzularının geniş olması, konkret tədqiqat suallarının olmaması, praktiki əhəmiyyət daşımayan işlərin çoxluğu və sair kimi məsələlər üzərində işlənilməli olan məqamlardandır. Yuxarıda qeyd olunan məsələləri nəzərə alaraq, növbəti il konfransın təşkilinədək kütləvi şəkildə doktorant və gənc tədqiqatçıların aşağıdakı mövzularda bacarıqlarının artırılması ilə bağlı tədbirlərin görülməsinə ehtiyac yaranmışdır:

- *Tədqiqat metodları*
- *Akademik yazı qaydaları*
- *CV yazılması qaydaları*
- *Təqdimat hazırlama və çıxış etmə*
- *Beynəlxalq jurnallarda nəşr olunma*

Yuxarıda qeyd olunan mövzularla bağlı təlimlərin keçirilməsi Təhsil İnstitutunun da diqqət mərkəzindədir. Doktorant və gənc tədqiqatçılardan peşəkar inkişafları üçün imkanlar ilə bağlı ARTİ-nin veb-səhifəsini *(arti.edu.az)* və sosial media səhifələrini izləmələri tövsiyə olunur.

# Universitetlərin elmi-tədqiqat profilli təhsil müəssisələrinə çevrilməsi

## Bu günün vacib məsələlərindən biri kimi



**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Ölkəmizdə həyata keçirilən təhsil islahatları daha geniş miqyasda aparılmaqla onun bütün pillə və səviyyələrini əhatə edir. Bir ölkə olaraq Azərbaycanın dünya təhsil məkanına inteqrasiya olunması məqsədini daşıyır. İstər təhsilin məzmun, istərsə də metodoloji cəhətdən mükəmməl olması, cəmiyyətin aparıcı qüvvəsi olan kadr potensialının müasir dövrün tələblərinə uyğun gücləndirilməsi prioritet olaraq diqqət mərkəzində saxlanılır.

Təhsil sosial fenomen kimi dəyərləndirilir. Həmçinin təhsil dedikdə, insanın müxtəlif yaş dövrlərində inkişafı və formalaşması başa düşülür. Təhsilin pillələrindən biri kimi ali təhsilin kadr hazırlığı sahəsində rolu nəzərə alınmaqla onun yenidən qurulması, respublikamızda elmin dünya təcrübəsi müstəvisində inkişaf etdirilməsi bu gün xüsusi maraq doğuran məsələlərdən biri kimi gündəmdə dayanır. Ölkəmizdə təhsilin, o cümlədən ali təhsilin inkişafı ilə bağlı qəbul olunmuş proqramlar bilavasitə bu məsələnin son dərəcə aktual olmasından xəbər verir.

### Universitetlərin beynəlxalq reytinqinin yüksəldilməsi

Azərbaycanda elmin inkişaf etdirilməsi və onun bilavasitə təhsillə inteqrasiya olunmasının vacibliyi, eləcə də bu sahədə ilk addımların atılması hazırkı fəaliyyətimizin gündəmində dayanır. Artıq "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı bu işlərin ümumi siyasətini müəyyən etməklə fəaliyyətimizi tənzimləyən bir sənədə çevrilmişdir. İndi bilavasitə inteqrasiya prosesinin reallaşdırılması istiqamətində iş aparılır. Bu prosesdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nda qeyd olunduğu kimi,"universitetlərin beynəlxalq reytinqinin yüksəldilməsinə və elmi-tədqiqat profilli təhsil müəssisəsinə çevrilməsinə nail olunması"na gözlənilən nəticələrdən biri kimi yanaşılır. Daha doğrusu, universitetlərin elmi-tədqiqat müəssisələrinə çevrilməsi, yeni, həm də fərqli elmi-tədqiqat strukturunun yaradılması kimi anlaşılır. Belə olan təqdirdə elmi araşdırmaların səmərəliliyini, effektivliyini təmin etmək üçün onların universitetin strukturunda xüsusi laboratoriya, mərkəz və ya institut kimi formalaşdırılması məqbul hesab edilə bilər. Kafedralar, yaxud müəllimləri birləşdirən hər hansı qurum həmin elmi qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində yalnız tədris yükünü yerinə yetirməklə fəaliyyət göstərər. Beləliklə, elmi-tədqiqatların nəticələri həm universitetdən kənarda, həm də universitetdəki tədris prosesində maneəsiz tətbiq olunmaqla faydalı ola bilər.

### Elmi-tədqiqatların qabaqlayıcı funksiyası

Hazırkı şəraitdə universitetlərin fəaliyyətində elmi araşdırmaların aparılması istiqamətlərdən biri olsa da, onun indiki formada təşkili bir sıra cəhətlərdən müasir tələblərə cavab vermir. Başqa sözlə, aparılan araşdırmaların tematikası cəmiyyətin inkişaf dinamikasını izləmək və onu istiqamətləndirməklə dəstəkləmək baxımından müasir tələblərə lazımınca uyğun gəlmir. Xüsusilə bu, pedaqoji, psixoloji sahələrdə aparılan elmi-tədqiqatlarda daha çox diqqəti cəlb edir. Belə ki, elmi-pedaqoji tədqiqatlar təhsil sisteminin qarşısında getməklə qabaqlayıcı funksiyanı yerinə yetirməkdə yubanır. Sistemli olaraq ardıcıl və davamlı şəkildə təhsil prosesinin özülünə çevrilməkdə daha təkmil diskussiyalar yaradılmasına ehtiyac duyulur. Aparılan ilkin araşdırmalar bilavasitə bu mülahizələri təsdiqləməklə, həm də onun universitetlərin strukturuna inteqrasiya edilməsi, daha böyük elmi potensialla reallaşdırılması zəruri edir.

İlkin araşdırmalar onu göstərir ki, elmi-tədqiqat müəssisələrinin universitetlərə inteqrasiya olunması, ilk növbədə, onların fəaliyyətində tədqiqatçılığı gücləndirməklə elmi-tədqiqat müəssisələrinə xas olan bir keyfiyyətin yaranmasına gətirib çıxaracaqdır. Bununla indiki kafedra sisteminə xas olan formal tədqiqatçılıq fəaliyyətindən imtina etmək mümkün olacaqdır.

Universitetlərdə yaradılacaq elmi laboratoriya, mərkəz və institutlar əslində araşdırmaların aparılması işini yeni müstəvidə mərkəzləşdirməklə onun daha keyfiyyətli təşkili məqsədi daşıyaraq tədqiqatların uğurla idarə olunmasına imkan yarada bilər. Həmçinin universitet daxilində və universitetdən kənarda ehtiyacların öyrənilməsi və nəzərə alınmasını asanlaşdırar. Belə bir yanaşmanı həyata keçirməklə elmi-tədqiqatların məhz rentabelli olması, onun nəticələrinin faydalı iş əmsalına çevrilməsi də mümkün ola bilər.

### Tədqiqatların mobilliyinin artırılması

Bu gün sürətlə dəyişən və inkişaf edən cəmiyyət hadisələri, prosesləri qarşılayan gələcəyə yönəlmiş proqnoz xarakterli fəaliyyətlərin olmasını daha çox tələb edir. Belə fəaliyyət həm də gələcəyin perspektivlərini müəyyən etmək baxımından əhəmiyyət daşıyır. İnkarolunmaz bir həqiqətdir ki, gələcəyin eskizini vermək, onun proqnozlarını təqdim etmək, ilk növbədə, aparılacaq elmi-tədqiqatların vəzifəsidir. Həm də bu tədqiqatlar ciddi nəzəri fundamental xarakteri ilə yanaşı, praqmatik xüsusiyyətləri ilə təcrübi əhəmiyyət kəsb edir. Əslində, müasir cəmiyyət özünün texnoloji ehtiyacları ilə daha çox tələblər irəli sürür və bu tələblərin yerinə yetirilməsində elmi-tədqiqatlar əsaslandırılmış müddəaları ilə məsuliyyət daşıyır. Ona görə də elmi-tədqiqatlar müasir zamanın çağırışına uyğun olaraq vacib bir keyfiyyət kimi mobillik tələb edir. Yəni, zaman kəsiyində ehtiyaclara uyğun tələbatları ödəmək, fəaliyyət istiqamətində addımları tənzimləyən müddəalarla gündəmə gəlmək və konkret qərarların verilməsini təsdiqləməklə dəstək olmağı şərtləndirir.

### Optimal şəraitin olması

Bütün bunlar elmi-tədqiqatların həm dünən, həm də bu gün üçün inkarolunmaz vəzifələri olsa da, onların daha uğurla yerinə yetirilməsində optimal mühitin, şəraitin olmasını zəruri hesab edir. Belə bir mühit bu gün daha çox təhsil prosesi ilə ələqələrin olması kimi xarakterizə olunur. Müəllim və tələbə çoxluğu ilə təmsil olunan təhsil mühitində araşdırmaların aparılması, müzakirə edilməsi, öyrənilməsi, nəticələrin maneəsiz tətbiqi kimi anlaşılır. Belə olan tərzdə araşdırmaların qrup şəklində, eləcə də kollektiv aparılmasına şərait yaranır. Aparılan elmi-tədqiqatların nəticələrindən istifadə etmək üçün onun yeni təhsil alan kadrlar tərəfindən öyrənilməsi imkanları genişlənir. Heç şübhəsiz, belə bir tədqiqat mühiti yalnız ali təhsil məktəblərində formalaşa bilər ki, bu gün elmi-tədqiqatlara yeni yanaşma müstəvisində universitetlərə inteqrasiya olunma bu baxımdan daha çox əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, müasir təhsil prosesində ali məktəb tələbələrinin peşəkar kadr kimi yetişdirilməsi üçün onların, ilk növbədə, axtarışlar apara bilmək, fakt və hadisələrə yaradıcı yanaşmaq bacarıqlarını inkişaf etdirmək zəruri hesab edilir. Bu günün tələbələri hadisələri seyr etmək, sadəcə öyrənməklə kifayətlənə bilməzlər. Onlar təqdim olunan mövzu ətrafında araşdırmalar aparmaqla öyrəndiklərini ümumiləşdirməyi, analiz, sintez etməyi, qənaətlərini arqumentlərlə sübuta yetirməyi bacarmalıdırlar. Bu isə istər-istəməz müxtəlif mənbələr üzərində araşdırmalar aparmağı, kiminsə nəticələrini deyil, məhz özlərinin fikirlərini meydana qoymağı tələb edir. Belə bir nəticəyə isə sadəcə bir dərslik və ya bir vəsait üzərində işləməklə nail olmaq mümkün deyildir. Hökmən problem üzrə müxtəlif mənbələr üzərində işləmək, araşdırmalar aparmaq tələb olunur. Müxtəlif fikirlərə standart olaraq ehkam kimi deyil, yaradıcı yanaşmaq, təhlil-tərkib süzgəcindən keçirərək münasibət bildirmək lazım gəlir. Odur ki, tədqiqatçılıq fəaliyyətindəki addımları və əldə olunan nəticələri daha geniş müzakirə etməklə onun cəmiyyətimiz üçün faydalılığı əsaslandırılmalıdır. Təbii ki, belə bir situasiyanın yaradılması elmi-tədqiqatları universitetlərə inteqrasiya etməklə mümkündür.

İlkin təcrübələr onu göstərir ki, elmin təhsilə inteqrasiya olunması universitetlərdə təhsil mühiti ilə yanaşı, elmi mühitin də güclənməsinə gətirib çıxarır. Bu isə müasir tələbələrin öyrənmə fəaliyyətinə müsbət təsir göstərməklə onların marağını daha da artıra bilər. Adətən yeni yanaşmalarla işləyən müasir müəllimlər, ilk növbədə, tələbələrini müsbət mənada təəccübləndirməklə onların marağına səbəb olmağa çalışırlar. Dərs prosesinə problem həlli kimi yanaşırlar. Hər dərs üçün zəruri mənbələri, onların elektron və ya qeyri-elektron variantlarını, eləcə də mümkün resursları əvvəlcədən tələbələrinə təqdim edirlər. Həmçinin tələbələrini mövzu üzrə əlavə mənbələri toplamağa istiqamətləndirirlər. Bununla dərsin fəal tədqiqatçılıq bazasında qurulmasına imkan yaradırlar. Əslində belə metodologiyaya söykənən fəaliyyətin əsasında, başlıca olaraq, məsələlərə tənqidi yanaşmaq və özünün mövqeyini müəyyənləşdirmək dayanır. Belə öyrənmə mühitinin iştirakçısı olan tələbələr diskussiyalara çıxaraq, özlərinin qənaətlərini axtarmağa başlayırlar.

Elmi-tədqiqatların mobilliyinin təmin olunmasında əsas şərtlərdən biri onun tələbatlara uyğun müəyyənləşdirilməsi və çevik xarakter daşıması ilə bağlıdır. Belə tədqiqatların qısamüddətli olması onun yararlılığını və effektivliyini təmin edir. Ənənəvi olaraq tədqiqatların müddəti müəyyən edilərkən ona bir neçə illik vaxtın ayrılması bir təcrübə kimi daha geniş yayılmışdır. Araşdırmalar onu göstərir ki, belə yanaşmalar zamanı çox hallarda tədqiqatın tamamlanmamış aktuallığını itirir. Bu cür hallara, xüsusilə təhsil tədqiqatlarında, eləcə də digər tətbiqi sahələrdə rast gəlmək mümkün olur. Təhsil sahəsində inkişaf və dəyişikliklər sürətli olduğundan burada dəstəkləyici və istiqamətverici araşdırmalara daha çox ehtiyac yaranır. Çünki təhsil prosesi özünün müxtəlif yanaşmalar (praqmatik, sinergetik və s.) əsasında inkişafını təmin etmək üçün empirik və qismən də nəzəri araşdırmaların nəticələrinə istinad etməli olur. Müxtəlif zamanlarda vacib tədqiqatlar gecikdirildikdə və aparılmadıqda zəruri fəaliyyətlərin həyata keçirilməsində fərdi mülahizələrə əsaslanan subyektiv yanaşmalar meydana çıxır. Nəticə etibarı ilə fəaliyyətimizdə risklər artır. Ona görə də elmi-tədqiqatların cəmiyyətin ehtiyaclarını qarşılaması, tələbatlarına cavab verməsi səmərəlilik baxımından əhəmiyyətli hesab edilir. Bu işin uğurlu olmasında isə elmi-tədqiqat prosesinin təhsil mühitinə inteqrasiyası həlledici rol oynayır.

Elmi-tədqiqatların, xüsusən elmi-pedaqoji tədqiqatların layihə əsaslı təşkili də onun mobilliyini təmin edən şərtlərdən biri kimi dəyərləndirilir. Layihə əsaslı araşdırmalar, əsasən, qısamüddətli olmaqla ehtiyaclara uyğun müəyyənləşdirilir və layihə kimi elan olunur. Belə tədqiqatların özünəməxsus büdcəsinin olması və müəyyən qaydalar əsasında sərbəst həyata keçirilməsi onun daha keyfiyyətli təşkilini, həmçinin zəruri hallarda metodoloji cəhətdən çeviklik göstərməsini, mobil xarakter daşımasını şərtləndirir. Son illər bu sahədə həyata keçirilən tədbirlər onun səmərəliliyini nümayiş etdirir.

Ali məktəblər daha çox yüksəkixtisaslı elmi-pedaqoji kadrların, professor-müəllim heyətinin çalışdığı məkan olduğundan onun elmi potensialı digər təhsil müəssisələrindən fərqlənir. Buradakı alimlər özlərinin tədris fəaliyyəti sahəsində pedaqoji nüfuz qazanmaqla yanaşı, həm də məşğul olduqları sahələrin nümayəndələri kimi tanınırlar. Odur ki, dünyada ali məktəblərin reytinqinin müəyyən olunmasında bu cəhətə xüsusi əhəmiyyət verilir. Belə ki, ali məktəblərin reytinqinin müəyyən olunması zamanı elmi jurnallarda, nəşrlərdə ali məktəblərdə aparılan tədqiqatlardan gətirilmiş sitatların onun professor-müəllim heyətinin ümumi sayına olan nisbəti əsas götürülür. Bununla universitetlərdə təhsillə tədqiqatların inteqrasiya olunmasına keyfiyyətin inkişafına təkan verən stimullaşdırıcı bir sistem kimi yanaşılır.

### Elmi-pedaqoji kadr hazırlığı

Universitetlərin elmi-tədqiqat müəssisələrinə çevrilməsi həm də yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlığı ilə şərtlənir. Bu sahədə müəyyən təcrübəyə sahib olsaq da, artıq dünya müstəvisində inteqrasiya, bütün sahələrdə olduğu kimi, təhsilin, o cümlədən ali təhsilin inkişaf etdirilərək dünya standartları səviyyəsinə çatdırılması strateji tələb kimi qarşıda durur. Elə bu səbəbdən də ölkə miqyasında müxtəlif vaxtlarda təhsil sahəsində siyasətimizi konkretləşdirən ayrı-ayrı sənədlər qəbul olunaraq fəaliyyətimizin əsasına gətirilir. Xüsusi olaraq yeni mütəxəssislərin yetişdirilməsi başlıca istiqamət kimi vurğulanır. 2018-ci ildə qəbul olunmuş Dövlət Proqramında qeyd olunduğu kimi, qloballaşma şəraitində yeni iqtisadi çağırışlara uyğun rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması, insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olmaq üçün ölkəmizdə ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Odur ki, bu səbəbdən bir sıra tədbirlərlə yanaşı, həm də respublikamızda ali təhsil müəssisələrinin akademik imkanlarının gücləndirilməsi məqsədilə tədbirlər müəyyənləşdirilir. Əsasən, bu tədbirlərin mərkəzində milli elmi kadrların inkişaf etdirilməsi, yetişdirilməsi durur. Bunun üçün ali təhsil müəssisələrində, o cümlədən universitetlərdə elmi kadrların hazırlanması məqsədilə bir sıra təşkilati işlərin görülməsi, tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Təcrübələr göstərir ki, elmi-tədqiqatların aparılmasında universitetlər, orada yaradılmış elmi-pedaqoji mühit xüsusi rol oynayır. Ona görə də dünya universitetlərində bu mühitin daha çox öyrədici, formalaşdırıcı xarakterdə yaranmasına səy göstərilir. Heç şübhəsiz, bu mühit universitet alimlərinin, tədqiqatçılarının gücü, imkanı hesabına yaranır. Ölkəmizdə ali təhsillə bağlı yuxarıda adı qeyd olunan Dövlət Proqramında bu məsələ xüsusi olaraq diqqət mərkəzində saxlanılır. İnkişaf etmiş xarici ölkələr, onların qabaqcıl universitetləri ilə əməkdaşlıq ön plana çəkilir. Eyni zamanda doktorantların seçiminin düzgün aparılmasına, onların ixtisasının müəyyənləşdirilməsinə, əlaqədar müəssisələrin cəlb olunmasına ciddi yanaşılır.

Elmi kadrların formalaşmasında elmi-tədqiqatların, onun aparılması üçün yaradılmış mühitin rolu xüsusilə böyükdür. Universitetlər ənənəvi olaraq tədris mühitinin güclü olması ilə fərqlənir. Əgər elmi-tədqiqat strukturları onların məzmununa inteqrasiya olunarsa, bu, istər-istəməz elmin, tədqiqatçılıq fəaliyyətinin daha da artması ilə nəticələnə bilər. Müzakirələr, diskussiyalar, elmi polemikalar və s. elmi-tədqiqatla məşğul olan insanlar, eləcə də təhsil alan doktorant və dissertantlar üçün nümunə məktəbinə çevrilər.

### Nəticə

Belə qənaətə gəlmək olar ki, universitetlərin elmi-tədqiqat profilli təhsil müəssisəsinə çevrilməsi istər-istəməz bu müəssisələrin strukturuna yenidən baxılmasını tələb edir. Eyni zamanda yaradılmış yeni elmi strukturun peşəkar, həm də yüksək tədqiqatçılıq mədəniyyətinə malik olan elmi kadrlarla təmin olunması əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Bu zaman tədqiqatların təhsil prosesi ilə inteqrasiyasına qarşılıqlı fəaliyyət müstəvisində yanaşmaq, onlardan birinin digərini zənginləşdirə bilməsi xüsusi pedaqoji tələb kimi qiymətləndirilir.

# İnam, sevgi olarsa...

## Fiziki məhdudiyyətli tələbə və müəllimlərin uğur hekayələri

### “İdmançı üçün təhsil rəqibindən 1-0 öndə olmaq deməkdir”

⇦ Əvvəli səh.1



Binəqədi rayonu Biləcəri qəsəbəsində yaşayan Zeynalovlar ailəsində bir körpə dünyaya gəldi. Adına Talib dedilər. İstədilər ki... Ata-ananın istəyi, arzusu bitməz, tükənməz. Hərbçi atası oğlu üçün nə xəyallar qurdu. Halbuki 10 günlük körpəsini əməliyyat etdirmək onların arasında yox idi.

Artıq tələbə olan bu cavan oğlan Talib Zeynalovdur. Bakı Dövlət Universitetinin tarix fakültəsində oxuyur. İlk təhsilinə 284 nömrəli tam orta məktəbdə başlayıb. VIII sinifdən təhsilinə 314 nömrəli tam orta məktəbin şagirdi olaraq evdə davam edib. Məktəbin müəllimləri 7-8 nəfər sağlamlıq imkanları məhdud uşaq kimi ona da evdə dərs deyib.

Məktəb illərində də əməliyyatları davam edib. Ard-arda keçirdiyi 4 əməliyyat onu dizində yaranan qığırdaq çürüməsi problemindən xilas etməyə yetməyib və II qrup əlilliyinə qədər gətirib çıxarıb: “Dördüncü əməliyyatım Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə 2017-ci ildə oldu. Beşinci dəfə də əməliyyat olunmalıyam”.

Talib xəstəliyi ilə mübarizə şəraitində həyata tutunmağı, dizində taqət olmadan da ayaqda qalmağı öyrənib.Sadəcə ayaqda qalmağımı? O, hətta ağırlıq qaldıraraq çempion olub.

2019-cu ildən parapauerliftinq üzrə yarışlara qatılmağa başlayıb. Yarışlarda qalib olmağı öyrənib, öz rekordunu özü təzələyib: “Bu idman növü ilə məşğul olmağa başlayandan az sonra məşqçim İlqar İbişov mənim bacarığımı gördü və qiymətləndirdi. Qısa zamanda onun qoyduğu tələbi artıqlaması ilə yerinə yetirirdim. Məşqçimin üzərimdəki əməyini hər zaman qiymətləndirirəm. Yarışlara da məni o hazırladı, o çıxardı.İndiki baş məşqçimiz Elşən Hüseynov isə zalda məşqimi görüb bacarığımı qiymətləndirdi və fiziki məhdudiyyətli olduğuma görə məni Paralimpiya Kompleksinə dəvət etdi”.

Yarışlara da elə bu idman növü ilə məşğul olmağa başladığı ildən qatılıb. Biləyinin gücünü məşqçilərinin istiqamətləndirməsi ilə ilk dəfə Uşaq Paralimpiya Oyunlarında sınayıb və V Uşaq Paralimpiya Oyunlarının qalibi olub. Növbəti yarışda pandemiya bitdikdən sonra iştirak edib. Bu iştirak da ona qələbə gətirib və növbəti Uşaq Paralimpiya Oyunlarında 15-17 yaşlılar arasında birincilik qazanıb. Hələlik sonuncu uğuru 2 ay əvvəl - sentyabrın 24-28-də Gürcüstanda keçirilən Açıq Avropa Çempionatına aiddir. Talib əvvəlcə 151 kilo qaldıraraq rus idmançısının, sonra isə 158 kilo ilə özünün rekordunu yeniləyərək yenə birincilik əldə edib. Çempionatın “107+” kateqoriyasında gənclər arasında çempiondur. Yarışdan vətənə 4 qızıl medalla qayıdıb. Ona 2 medal birinciliyinə, 2 medal da rekordlarına görə verilib. Sumqayıt şəhərindəki Paralimpiya Kompleksində məşqlərə davam edir və 2023-cü ildə keçiriləcək dünya çempionatına hazırlaşır. Paralimpiya Komitəsi nəzdində fəaliyyət göstərən milli yığmanın üzvü olan Talib üçün parapauerliftinq, sadəcə bir məşğuliyyət, əlavə bacarıq deyil, əsas məqsəd, hədəf, gələcək deməkdir.

Bəs, universitet? Talibin sözlərinə görə, tarix də onu çox maraqlandırır. Amerikaşünaslıq ixtisasını seçib, çünki Amerikaya marağı elə tarixə olduğu qədərdir. Amerikada olmaq, orda yarışmaq xəyallarından biridir: “Tarixi mənə tarix müəllimim sevdirib, Ramal müəllim. X sinifdə oxuyurdum tarixə marağım yarananda. Elə bu maraq da universitet və ixtisas seçimimə təsir etdi. Gələcəyimi idmanla bağlamaqda qərarlı olsam da, təhsilin hər kəs üçün önəmli olduğunu bilirəm. Hələ idmançı üçün təhsil rəqibindən 1-0 öndə olmaq deməkdir”.

Talib, sadəcə özü üçün yaşayan, uğur qazananlardan deyil: “Olduğum ortamlarda mənim kimilərə diqqət edirdim. Xüsusən bərpa mərkəzində mənim kimi, hətta məndən daha ağır vəziyyətdə olanlarla tanış oldum. Hər şeydən əlini, həyatdan ümidini üzənləri gördüm. Təhsilim, uğurlarım başqalarına da ümid olsun istəyirəm, insanlar mənə baxıb özünün də qazanacağına inansın. Çalışıram başqaları üçün motivasiya mənbəyi olum”.

### “Məktəbi, şagirdlərimi heç nəyə dəyişmərəm”



Elnarə Ramazanovanın bəxti o hələ ana bətnində olanda gətirməyib: “Anam hamiləykən bərk qorxu keçirib və bu, ana bətnində serebral iflic keçirməyimə səbəb olub. Sonra doğuş zamanı problem yaranıb və ayağımda çıxıq əyripəncəliklə nəticələnib”.

Bu qədər ağır zərbələrdən sonra yeriməsi 3 yaşına, oxumağa başlaması isə 9 yaşına çəkib. Məktəbə də təsadüfən gedib: “Atamın maşını yox idi. Hər gün məni məktəbə aparıb-gətirə bilməyəcəkdi. Həm də düşünüblər ki, qızam, oxumağıma ehtiyac yoxdur. Evimizin yaxınlığında mənim kimi uşaqlar üçün şəraiti olan bir məktəb olduğundan da xəbərsiz olublar. Bir gün anamla mənə ayaqqabı almağa getmişdik. Sənubər adlı müəllimlə təsadüfi qarşılaşmağımız mənim həyatımı dəyişdi. İndiki kimi yadımdadır. O oxumağımla maraqlandı. Oxumadığımı eşidəndə anama internatda mənim kimilər üçün şərait olduğunu dedi və valideynlərim məni həmin 16 nömrəli internata qoydular”.

V sinfə kimu orda oxuyan Elnarə Ramazanova bir gün eşidib ki, sevimli riyaziyyat müəllimi işdən çıxıb: “Evdə ağlayıb israrla artıq o məktəbə getmək istəmədiyimi dedim. Çünki mən də qardaşımın oxuduğu məktəbdə təhsil almaq istəyirdim. Riyaziyyatım əla idi, dərslərimi yaxşı oxuyurdum. Məcbur olub anam məni internatdan çıxarıb Şüvəlandakı məsafəcə daha uzaq məktəbə - İlqar Muradov adına 237 nömrəli məktəbə apardı. Direktor əvvəlcə sağlamlıq imkanlarımın məhdud olduğunu nəzərə alıb məni məktəbə götürmək istəmədi. Yolun məni yoracağını düşünürdü. Sözümdən dönmədiyimi görüb güzəştə getdi. Amma sənədlərimi götürmədi, yorulub məktəbə getməkdən imtina edib-etməyəcəyimi gözləmək qərarına gəlmişdi. Amma mən yorulmadım və onu məni həmin məktəbə qəbul etməyə məcbur etdim”.

Amma Elnarənin qarşısına yeni məktəbdə yeni problemlər çıxıb. Bu, yol yorğunluğu kimi sadə problem olmayıb: “Məktəbdə qarşılaşdığım münasibət fərqli oldu. Əlilliyimə görə məndən çəkinirdilər. Ona görə də uşaqlarla münasibət qurmaq ilk vaxtlar çətin oldu”.

Ancaq sonra o öz bilik və bacarığı ilə münasibəti dəyişməyə nail olub. Qısa müddət sonra bütün müəllimlərinin sevimlisi olmağı bacarıb: “Riyaziyyat və fizikaya yeni məktəbimdə yenidən aşiq oldum, təbii ki, müəllimlərim sayəsində”.

Bir göz qırpımında axan zaman onu yox, ailəsini yenidən çətin qərar qarşısında qoyub. 11 il əvvəl məktəbə qoymağa üşəndikləri qızı bu dəfə universitetə göndərməyə tərəddüd edirdilər. Yenə onları düşündürən əsas amil bu qızın universitetə necə gedəcəyi idi...

Onlar bilmirdilər, amma o qız özü bilirdi nə istədiyini, müəllim olacaqdı. Bu dəfə də israr etdi və qalib gəldi. Bu qələbəsində ən böyük təkanı isə müəllimləri verdi. Dediyinə görə, xüsusən fizika müəlliminin atası ilə söhbəti təsirli olub: “Fizika müəllimim atamla danışdı. Dedi ki, bu qızın oxumaqdan, təhsil alaraq bir peşəyə yiyələnməkdən başqa çarəsi yoxdur. Öz ayaqlarım üstündə dura bilməyim üçün bunun vacib olduğunu atama izah edərək, onu razı saldı”.

Hardan biləydilər ki, “Qızdır, oxumağına o qədər də ehtiyac yoxdur”, deyib məktəbə belə göndərmədikləri o qız taleyini məktəblə bağlayacaq, minlərlə qıza təhsil verəcək? “Yol yorğunu olar”, - deyib yaxınlıqda məktəb axtardıqları Elnarə böyüyüb müəllimlikdə illərdir davam edən uzaq yol yolçusu olacaq?

Bu yol Qala qəsəbəsindən başladı. Azərbaycan Dövlət Pedaqoji Universitetində “Fizika müəllimliyi” ixtisası üzrə bakalavr təhsilini tamamlayıb 2003-cü ildən fizika müəllimi kimi işə başlayan Elnarə Ramazanova dərs demək üçün əvvəlcə Qala qəsəbəsinə gedib: “92 nömrəli tam orta məktəbdə işləyə-işləyə magistraturaya qəbul olundum. Səhər saat 8-də məktəbə gedirdim, 2 saat sonra universitetə”.

Məktəb, dərslər, sonra... Bu rejim indi də davam edir. Elnarə müəllim deyir ki, o, gün ərzində daha çox müəllim olur, nəinki ana. Belə görünür, 6 yaşlı balası məktəb yaşına çatıb fizika-riyaziyyat öyrənməyə başlamadan müəllim anasının üzünü görə bilməyəcək. Çünki şagirdləri onun üçün hər zaman bir addım irəlidədir: “Universitetdə müəllimlərim qalıb təhsilimi davam etdirməyimi, orda işləməyimi istəyirdilər, amma mən məktəbə qayıtdım, çünki məktəbi, şagirdlərimi heç nəyə dəyişmərəm”.

İlk dərs gününü, ilk dəfə dərs keçdiyi sinfin şagirdlərini də xatırlayır: “Həmin sinfə məni direktor müavini təqdim etdi. O gündən şagirdlərimlə bir-birimizi sevdik. Onlarla əlaqələrim indi də davam edir. Mənimlə danışır və mənə “Nə yaxşı ki, bizim müəllimimiz olmusunuz”, - deyirlər. Aralarında xaricdə təhsil alanlar belə var”.

Elnarə müəllim hazırda Şüvəlandakı 230 nömrəli tam orta məktəbdə işləyir. Dünyaya öyrətmək üçün gəldiyinə inanır: “Sevgini qazanmaq çətindir, amma qazanandan sonra şagird-müəllim münasibətləri asanlaşır. İnsan bu dünyaya gəlişinin səbəbini anlayanda xoşbəxt olur, deyirlər. Mən dünyaya öyrətmək üçün gəlmişəm. Uşaqları öyrətməkdən zövq alır, onların öyrəndiklərini, nəticələrini görüb qürur duyuram. Uşaqlıqdan müəllim olmağı arzulamışam. Amma indi görürəm ki, sadəcə müəllim yox, sinifdə həm də bir mühəndis, həkiməm. Şagirdlərim hansı ixtisasa qəbul olunsa, özümü həmin ixtisasda təhsil alırammış kimi hiss edirəm”.

Elə bir bağ qurub ki, bu sayədə şagirdləri onu fərqli görmür, o şagirdlərinin baxışında öz fərqini anlayır: “Hər dəfə mühitimi dəyişəndə ilk 2-3 ay həyatımın ən çətin dövrü olub. Adaptasiyamı çətinləşdirən isə üzərimdə hiss etdiyim baxışlar idi. Hamı mənə birtəhər baxırdı. Məktəb dəyişəndə, universitetə gedəndə bu münasibəti hiss etdim. Hələ də ilk dəfə dərsinə girdiyim şagirdlərimin qəribə baxışları ilə qarşılaşacağımı düşünürəm. Amma görürəm ki, bu, mənə belə gəlir, uşaqların üzündə qəribə baxışları görmürəm. Əksinə, valideynlər uşaqlarına məhz mənim dərs deməyimi istəyir, bunu da uşaqların məni sevməyi ilə əsaslandırırlar. Bunu eşitmək qədər xoşbəxt olduğum başqa bir şey yoxdur”.

Elnarə müəllimin indi ən böyük çətinliyi binalarda məhəccəri olmayan pilləkanlardır: “Tutub qalxmağa məhəccər olmayan pilləkanlarda məcbur olub dayanıram. Hər dəfə kimdənsə kömək ummağa utanıram”.

Karyera pilləsində də daha yuxarı pillələrə qalxmaq keçir könlündən: “Fiziki məhdudiyyətim üzündən Şüvəlandan kənara çıxa bilmirəm. Çünki artıq avtobusa minib-düşə bilmirəm. Halbuki təlimlərə qatılmaq, seminar və konfranslarda iştirak etmək, yeniliklərdən xəbərdar olmaq istəyirəm. Müəllim daim inkişaf etməlidir, axı”.

Kitab oxumağı sevir, dünya ədəbiyyatını mütaliə edərək dincəlir. Ən böyük arzularından biri də məhz bununla bağlıdır: “Evim balacadır, bunu edə bilmirəm, amma ən böyük arzum evimdə şəxsi kitabxanamın olmağıdır”.

### “Əlillik şagirdlərimi sevməyimə əngəl yaratmır”



- 2007-2009-cu illərdə xərçəng xəstəliyi ilə mübarizə apardım. Xərçəngi yendim, amma bu qələbə mənə ayağım bahasına başa gəldi. Həkimlər “Xilas olmaq istəyirsənsə, ayağın amputasiya olunmalıdır”, - deyəndə, sanki dünya başıma fırlandı, mənən çökdüm, çox pis oldum. Amma çarə yox idi. Yaşamaq üçün bu itkini gözə almalı idim. 2009-cu ilin dekabrında əməliyyat olundum. Gözümü açanda yanımda yaxınlarımla yanaşı, iş yoldaşlarımı, dostlarımı, sevənlərimi, bütün sevdiklərimi gördüm. Mən nikbin insanam, o günlərdə hamıya təsəllini də mən özüm verdim. Sevgi ilə bəsləndim, ondan güc alıb ayağa qalxdım. Düz 6 ay sonra, “Son zəng” günü “yeni ayağımla” yenidən şagirdlərimin yanında idim”.

Bu da Xətai rayonu M.Hacıyev adına 116 nömrəli tam orta məktəbin müəllimi Nərmin Əhmədovanın həyatını dəyişən xatirə, həyatına II qrup əlil olaraq davam etməsinin səbəbi olan hekayə. Bəlkə həyatını dəyişib, amma müəllimliyini, müəllimliyə münasibətini, şagirdlərinə sevgisini dəyişə bilməyib bu hadisə. Sağlamlığı məhdudlaşıb, dünyaya baxışı yox. Yenə hər gün evindən məktəbə getmək üçün çıxır, eyni həvəslə məktəbə tələsir, sevimli şagirdlərinə bilik verir, xarici dil bacarığı aşılayır.

1983-cü il doğumlu müəllimin məktəblə ilk tanışlığı Xətai rayonundakı 269 nömrəli təhsil müəssisəsindən başlayıb. Hərfi, rəqəmləri də, elə özünü də burada tanıyıb. 1999-cu ildə məktəbi bitirib statusunu dəyişib. Təhsilə tələbə olaraq davam edib. Azərbaycan Dillər Universitetinin İngilis dili filologiyası fakültəsində bakalavriatı uğurla tamamlayıb və məktəbə qayıdıb. Bu dəfə müəllim kimi: “2003-cü ildə universitetdən məzun olar-olmaz müəllim kimi fəaliyyətə başladım. Düz 20 il əvvəl idi. İlk dəfə sinfə girdiyim an belə yadımdadır. Çox həyacanlı idim.Necə həyəcanlanmayım?! O günü xatırlayanda indi də eyni hissləri yaşayıram. Çünki müəllimliyi ilk günkü həyəcanla sevirəm”.

Onu bu məktəbə bağlayan sevgi, yalnız özünün müəllimliyə olan həvəsi olmayıb. Eyni istiliyi həmkarlarından da alıb. Məktəbin daha təcrübəli müəllimləri 20 yaşlı müəllimə öz çətin peşəsinin öhdəsindən gəlməkdə hər cür kömək ediblər. Sevərək ona sevib-sevilməyi, öyrədə-öyrədə öyrənməyi öyrədiblər: “Aldığım peşəkar dəstək sayəsində mən də özümü şagirdlərimə sevdirməyi bacardım. Hər birinin hörmətini, sevgisini qazandım. Sevgidən ürəklə danışıram, çünki sevildiyimə əminəm. Əminliyimi isə xəstəliyim təmin etdi. Bu sevgi sayəsində amansız xəstəliyə qarşı müqavimət göstərə bildim, bu sevgi itirdiyim ayağımı əvəz etdi”.

Hiss etdiyi sevgi bəzən əlil olduğunu belə unutdurur ona. Kurslarda, seminarlarda iştirak edir. Şagirdləri üçün özünü inkişaf etdirir. Bu məqsəd üçün hətta İngiltərəyə belə gedib çıxıb: “2015-ci ildə Təhsil Nazirliyi və British Council-ın təşkilatçılığı ilə İngiltərədə Canterbury Christ Church Universitetində “Teacher Developing” təlimdə iştirak etdim. Bu təlim mənə bir çox üstünlüklər qazandırdı, bir çox yeniliklərdən xəbərdar oldum”.

Müəllimlərlə peşəkar səfərə o qədər uzağa getsə də şagirdləri ilə qısamüddətli, qısaməsafəli planlar cızır: “Şagirdlərimi çox sevirəm, məktəbdən əlavə də onlarla vaxt keçirirəm. Təbiət qoynuna ekskursiyalara, kinoya, tədbirlərə gedirik. Əlillik onlarla vaxt keçirməyimə, şagirdlərimi sevməyimə əngəl yaratmır”.

O, yaşadığı ömrün fərqindədir. Bu, bir müəllim ömrüdür: “İnanıram ki, mənim hekayəm də çoxlarına stimul olacaq, onları ruhlandıracaq” , - deyən Nərmin müəllimin özünə ən böyük arzusu nədir, bilirsiniz?

“Peşəmi çox sevirəm. Hərdən zarafatla yoldaşlarıma deyirəm, düz 34 ildir ki, sentyabr səhəri durub məktəbə gedirəm, 10 il orta məktəbə şagird kimi, 4 il ali məktəbə tələbə kimi, 20 ildir ki, müəllim kimi. Bundan sonra da sağlam canla məktəbə getmək ən böyük arzumdur”.

Bu böyük arzunu yaşadan, ildən-ilə böyüdən isə yenə də sevgidir, şagirdlərinə, bir də X sinifdə oxuyan məktəbli oğluna olan böyük sevgisi.

**Ruhiyyə DAŞSALAHLI**



Əhməd Cavad – 130

# Böyük istiqlal şairi

## Şagirdlərin vətənpərvərlik tərbiyəsində Əhməd Cavad irsindən istifadə imkanları

Azərbaycan xalqının tarixində xüsusi xidmətləri olan görkəmli şəxsiyyət, böyük şair, tanınmış maarifçi və ictimai xadimlərdən biri də Əhməd Cavaddır. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev istiqlal şairi kimi müstəsna mövqeyə malik olan bu böyük söz ustasının anadan olmasının 130 illiyinin qeyd edilməsi haqqında 20 aprel 2022-ci ildə sərəncam imzalamış və onun fəaliyyətini yüksək qiymətləndirmişdir. Zəngin yaradıcılığı nəzərə alınaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Əhməd Cavad Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

> **Əhməd Cavad 1920-1922-ci illərdə Quba qəzasının Xuluq kəndində müəllim işləmiş, türk və rus dillərindən dərs demişdir. 1922-ci ildə Bakıya gələrək, Ali Pedaqoji İnstituta daxil olmuş, 1926-cı ildə institutu müvəffəqiyyətlə bitirmişdir. N.Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində işləmişdir. O, AXC dövründə “Azərbaycan dilinin sərfi və nəhvi” adlı ilk dərsliyin müəllifi kimi də tanınır.**

Əhməd Cavad — Cavad Məmmədli oğlu Axundzadə 5 may 1892-ci ildə Şəmkir rayonunun Aşağı Seyfəli kəndində ruhani ailəsində dünyaya gəlmişdir.

Cavad ilk təhsilini kənddə, molla yanında (üç il) almışdır. Hələ uşaq yaşlarından bir sıra əcnəbi dillərə —ərəb və fars, sonralar isə rus dilinə dərindən yiyələnmişdir.

Araşdırmalardan məlum olur ki, kiçik yaşlarında ikən atası vəfat etmiş, anası Yaxşı xanım Cavadı götürüb Gəncəyə gəlmiş, burada xalça sexində işə düzəlmişdir. 1906-cı ildə Ə.Cavad Gəncədə Müsəlman Ruhani Seminariyasında təhsilini davam etdirmişdir. Əla qiymətlərlə oxuduğuna görə ona “Xeyriyyə” cəmiyyəti tərəfindən hər ay yeddi dinar qızıl pul məbləğində təqaüd verilmişdir. Seminariyada Abdulla Şaiq, Hüseyn Cavid, İdris Axundzadə kimi ziyalılar Əhməd Cavadın müəllimi olmuşlar. O, Seminariyada 6 il oxumuş, 1912-ci ildə təhsilini başa vurmuşdur.

Ə.Cavad 1913-cü ildə Gəncədə Qafqaz Şeyxülislamı Məhəmməd Pişnamazzadəyə imtahan vermiş, “Şərəfli türk və fars dilləri müəllimi” adını almışdır. Sonra müəllim kimi 1 nömrəli Qız məktəbində pedaqoji fəaliyyətə başlamışdır.

O, 1912-1913-cü illərdə Balkan müharibəsində, könüllü olaraq Türkiyə tərəfində bolqarlara qarşı hərbi əməliyyatlarda iştirak etmişdir. Birinci Dünya müharibəsi illərində Ə.Cavad bir çox qəzetlərdə xüsusi müxbir kimi fəaliyyət göstərmiş, “İqbal”, “Yeni iqbal”, “Şəlalə”, “Açıq söz”, “Azərbaycan”, “Maarif və mədəniyyət”, “Maarif işçisi” kimi mətbuat orqanlarında xəbərlər, reportajlar, oçerklər, sənədli hekayələr, felyetonlar, tarixi əsərlər, etnoqrafik etüdlər və s. dərc etdirmişdir. Müharibə illərində xeyriyyəçilik fəaliyyətini də davam etdirmiş, zərərçəkənlərə əməli kömək göstərmiş, bu barədə silsilə yazılar çap etdirmişdir. Bu dövrdə onun yaradıcılığında müharibə mövzusu əsas yer tutmuş, eyni zamanda milli istiqlala çağırış mövzusunda şeirlər yazmışdır.

Ə.Cavad türk ellərini gəzərək bayatılar, folklor nümunələri toplayır, türk uşaqları üçün məktəblərin, uşaq evlərinin açılmasında təşəbbüs göstərir, xalqı maarifləndirməyə səsləyirdi. Ə.Cavad türk xalqını, onun qəhrəmanlığını tərənnüm edən dəyərli şeirlərin müəllifidir.

Təsadüfi deyil ki, Ə.Cavad təkcə Azərbaycanda deyil, bütün türk dünyasında böyük şair, fədakar, qəhrəman türk oğlu kimi tanınır. Azərbaycan Xalq Cümhuriyyətinə qədər, AXC dövründə və AXC-dən sonrakı illərdə onun yaradıcılığının ana xəttini türkçülük, vətənpərvərlik, dövlətçilik, millilik ideyaları təşkil edir.

Ə.Cavadın 1918-1920-ci və sonrakı illərdəki yaradıcılığı xüsusi mərhələ təşkil edir. AXC dövründə Ə.Cavadın yaradıcılığı daha çox milli azadlıq mübarizəsinə həsr olunmuşdur. “Ey əsgər” (1918), “Bismillah”(1918), “Qalx”(1919), “Nədən yarandın”, “Marş” (1918), “Türk ordusuna” (1918) və s. bu dövrdə yazılmışdır.

Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan türk əsgərlərinə Bakıda Şəhidlər abidəsinin təməlqoyma mərasimində iştirak edən şair Ə.Cavad “Qalx” şeirini oxumuşdur:

*Qalx, qalx sarmaşıqlı məzar altından,*
*Gəlmiş ziyarətə qızlar, gəlinlər,*
*Ey karvan keçidi, yollar üstündə,*
*Hər gələn yolçuya yol salan əsgər.*

AXC dövründə Ə.Cavad 100-dən çox şair və yazıçını öz ətrafında birləşdirən “Yaşıl qələmlər” dərnəyinin üzvü idi. Dərnək üzvləri yeni dövrdə Azərbaycan ədəbiyyatı və incəsənətinin inkişafı naminə yeni məzmunlu əsərlər yazır, xalqın milli özünüdərki istiqamətində səylər göstərirdilər. Sonralar isə Ə.Cavad həm də Proletar Yazıçıları Cəmiyyətinin üzvü olmuşdur. Ə.Cavad AXC-nin Gürcüstanda və Dağıstanda fövqəladə və səlahiyyətli nümayəndəsi kimi də xeyli işlər görmüşdür.

Əhməd Cavad 1920-1922-ci illərdə Quba qəzasının Xuluq kəndində müəllim işləmiş, türk və rus dillərindən dərs demişdir. 1922-ci ildə Bakıya gələrək, Ali Pedaqoji İnstituta daxil olmuş, 1926-cı ildə institutu müvəffəqiyyətlə bitirmişdir. N.Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində işləmişdir. O, AXC dövründə “Azərbaycan dilinin sərfi və nəhvi” adlı ilk dərsliyin müəllifi kimi də tanınır.

Əhməd Cavad 1920-1922-ci illərdə siyasi görüşlərinə, yazılarına görə 3 dəfə həbs olunub. O, birinci dəfə Mirzə Bala Məmmədzadənin Türkiyəyə qaçırılmasında günahlandırılmış və 1923-cü ildə (bir neçə aylıq), ikinci dəfə 1925-ci ildə (5-6 ay həbsdə saxlanılmış —“Göy göl” şeirinə görə), 3-cü dəfə isə 4 iyun 1937-ci ildə Hüseyn Cavid, Mikayıl Müşfiq və Vəli Xuluflu ilə birgə həbs edilmişdir. 1937-ci ilin oktyabrın 12-də Ə.Cavada hökm oxunmuş (məhkəmə cəmi 15 dəqiqə davam etmişdi), oktyabrın 12-dən 13-nə keçən gecə güllələnmişdir.

Xalqımızın sevdiyi, həmişə böyük hörmət və ehtiramla yad etdiyi şəxsiyyətlər sırasında Əhməd Cavadın xüsusi yeri vardır. Əhməd Cavadın çoxşaxəli fəaliyyəti böyüyən nəsillərimiz üçün örnəkdir. O, milli-azadlıq mübarizəsində əməli işi, xeyriyyəçiliyi, çalışdığı sahələrdə vətənə, xalqa xidməti, o cümlədən yazdığı əsərləri ilə xalqımızın yaddaşında dərin iz buraxmışdır. O, zülmə, istibdada, əsarətə heç zaman boyun əyməmiş, öz cəsarəti, alovlu çıxışları ilə xalqda milli azadlıq, dövlətçilik şüurunun inkişafına güclü təsir göstərmişdir. Öz əsərlərində milli müstəqillik, istiqlalçılıq ideyalarını tərənnüm etməklə xalqın milli ruhunun inkişafında mühüm rol oynamışdır. Sovet dövründə uzun müddət Əhməd Cavad yaradıcılığını öyrənmək, təbliğ etmək qadağan olunsa da, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra onun həyat və yaradıcılığını tədqiq və tədris etmək üçün geniş imkanlar yaradılmış və bu istiqamətdə təqdirəlayiq işlər görülmüşdür. Əhməd Cavad irsi ilə bağlı ciddi araşdırmalar aparılmış, onun həyat və yaradıcılığının haqlı olaraq tədris proqramlarına daxil edilməsi məqsədəuyğun bilinmişdir. Dövlət Himnimizin sözləri isə məhz böyük şairimiz Ə.Cavada (musiqisi Ü.Hacıbəyli) məxsusdur. Bu gün məktəbəqədər təhsil müəssisələrindən başlayaraq təhsilin bütün pillə və səviyyələrində Ə.Cavad şəxsiyyəti, onun həyat və yaradıcılığı ilə tanış olmaq imkanları vardır. Hər bir dərsliyin əvvəlinci səhifəsində Azərbaycan Respublikasının Dövlət Himni təqdim olunur. Dövlət Himninin sözləri hər bir azərbaycanlıda fərəh, qürur hissi doğurur. Bu sözlər insanı vətən, torpaq, dövlətin müdafiəsi uğrunda hər zaman mübarizəyə hazır olmağa səsləyir. Bu sözlər düşmənə aman verməməyə, doğma yurd uğrunda öz canını qurban verməyə hazır olmağa bir çağırışdır:

*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*

- misraları, həqiqətən, əzəmətli səslənir, bu çağırış gənclərimizin müstəqil dövlətimizin möhkəmləndirilməsi uğrunda mübarizə əzmini daha da gücləndirir.

Ə.Cavad Vətəni qorumaq hissini insanın şərəf, namus işi kimi yüksək dəyərləndirir. Vətən, bayraq anlayışlarını müqəddəs anlayışlar kimi qiymətləndirir, Vətən, dövlət bayrağını uca tutmağı övlad borcu hesab edir:

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən! Şanlı Vətən!*
*Azərbaycan! Azərbaycan!*
*Azərbaycan! Azərbaycan!*

Qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Himni müvafiq qaydalara uyğun olaraq rəsmi dövlət tədbirlərində, toplantı və yığıncaqlarda səsləndirilir. Bu himnin sözləri və musiqisi insanın qəlbini böyük fərəh və qürur hissi ilə coşdurur, bu himni oxuyarkən Vətənimizin keçmişi, bu günü və gələcəyi möhtəşəmliyi, əzəməti, vüqarı ilə göz önündə canlanır:

*Minlərlə can qurban oldu,*
*Sinən hərbə meydan oldu!*
*Hüququndan keçən əsgər,*
*Hərə bir qəhrəman oldu*

- misralarında xalqımızın haqq səsi, Azərbaycanın müstəqil dövlətçiliyi uğrunda mübarizəsi, sinələrini hərbə meydan etmiş oğul və qızlarımızın qəhrəmanlıqları əksini tapmışdır. Bu misralar Azərbaycanın müstəqilliyinin nə qədər mürəkkəb şəraitdə əldə olunduğunu, çətin yollardan, sınaqlardan keçdiyini bir daha təsdiqləyir.

Məktəb dərsliklərini ələ alan şagird, ilk növbədə, məhz Ə.Cavadın bu şeiri ilə tanış olmaq imkanı qazanır, şairin aşıladığı milli ruhu, ifadə etdiyi duyğuları hiss edir və onda milli mənlik hissinin formalaşması və inkişafı üçün zəmin yaranır.

Ümumtəhsil məktəblərində ədəbiyyat və Azərbaycan tarixi fənlərinin tədrisində, həmçinin dərsdənkənar tədbirlərdə Ə.Cavad irsinin öyrənilməsi və təbliği imkanları daha genişdir. Məsələn, ədəbiyyat fənnindən 5-ci sinifdə dərsliyin “Yurd sevgisi, ana məhəbbəti” bölməsində (səh.44-45.) Ə.Cavadın “Azərbaycan! Azərbaycan!” (ixtisarla) şeiri verilmiş və bu şeirin şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün geniş təsir imkanları vardır. Şeirdə yurd yeri, Vətən kimi, Azərbaycanın əzəməti, ərazisinin təbiəti, bol nemətləri təsvir olunur.

Şeirdən aşağıdakı misralara diqqət edək:

*Laçının var, tərlanın var,*
*Çoxlu şirin dastanın var,*
*Qorxun yoxdur, düşmanın var,*
*Azərbaycan, Azərbaycan! (səh.45)*

Ə.Cavad Azərbaycanın qüdrətini, əzəmətini, heç nədən qorxmadığını göstərməklə, həm də düşməni unutmamağa, döyüşə hazır olmağa səsləyir. Bu fikirlər və bütövlükdə şeirdəki ideyalar şagirdlərin vətənpərvərlik hissinin formalaşmasına istiqamətlənmişdir.

9-cu sinifdə ədəbiyyat fənni üzrə “Azərbaycan bayrağına” şeiri (səh.13.) verilmiş və bu şeirdə şairin Vətənə, dövlətə, millətə olan sevgisi aydın və sadə dildə qələmə alınmış, türk tarixinin şanlı səhifələri dilə gətirilmişdir. Bu şeirin məzmunu şagirdlərdə dövlətə, dövlət bayrağına, Vətənə, millətə hörmət və məhəbbət aşılamaq, bütövlükdə vətənpərvərlik hissi formalaşdırmaq üçün geniş imkanlara malikdir. Əsərdə adıçəkilən Türküstan, üçrəngli bayraq, Turan, Qayı xan soyu və s. ifadələr şeirin milli ruha qida verən təsir gücünün göstəricisi kimi qeyd edilə bilər.

Ümumiyyətlə, Ə.Cavad yaradıcılığında bayrağa hörmət və sevgi hissi çox güclüdür.

Tarixdən məlumdur ki, Balkan müharibələrində, daha sonra I Dünya müharibəsində türk ordusu və donanması düşmən üzərində parlaq qələbələr çalmış, türk sərkərdələri, əsgərləri, qəhrəmanlıqları ilə tarix yazmışlar. Məhz həmin qəhrəmanlıqları tərənnüm edən şeirlərdən biri Ə.Cavadın 1914-cü ildə yazdığı “Çırpınırdı Qara dəniz” şeiridir. Mətbuatda bu şeir bəzən “Yol ver türkün bayrağına” adı ilə qeyd edilir. Şeirdən bir parçaya diqqət edək:

*Çırpınırdı Qara dəniz,*
*Baxıb türkün bayrağına*
*Ah! ... deyirdim, heç ölməzdim,*
*Düşə bilsəm ayağına!*

Bu şeirdə türk bayrağına sevgi, məhəbbət ən yüksək səviyyədə ifadə olunmuşdur. Şair türk bayrağı, türk elləri ilə fəxr edir, nə qədər qürurlu olduğunu poetik dillə diqqətə çatdırır. Bu, əslində bir vətənpərvərlik nümunəsidir, böyüyən nəsillər üçün örnəkdir. Bu şeir hər türk övladının qəlbini Vətən eşqi ilə alovlandırır, onun ömür yoluna işıq saçır. Nümunədən göründüyü kimi, Ə.Cavad irsində vətənpərvərlik ideyaları başlıca yer tutur.

Şeirdən digər parçaya diqqət edək:

*Dost elindən əsən yellər,*
*Mənə şeir, salam söylər!*
*Olsun Turan bütün ellər*
*Qurban Türkün bayrağına!*
*Yol ver Türkün bayrağına!*

Qeyd edək ki, Əhməd Cavadın 14 avqust 1918-ci ildə “Gənclər yurdu”nda nəşr etdirdiyi “Marş” şeirində də bayraq tərənnüm olunur:

*Bayrağıma xain baxan*
*Xain gözə mən tikanam.*
*Vurulursam kölgəsində*
*Halal olsun ona qanım!*

Göründüyü kimi, Ə.Cavad daim türk bayrağını ucalarda görməyi arzulamış, onun uğrunda mübarizəni o, Vətənin, millətin, dövlətin əbədi azadlığı, müstəqilliyinin qorunması, möhkəmləndirilməsi uğrunda mübarizə kimi anlatmışdır. Şair vətən, dövlət uğrunda mübarizədə həmişə ölümə hazır olduğunu da dilə gətirir, bu yolda həlak olarsa, qanını da halal edir. Türk bayrağına qurban olmağı özü üçün şərəf işi hesab edir.

Qeyd etdiyimiz şeir parçalarının məzmunu Ə.Cavadın yaradıcılığının milli koloritini, onun vətənpərvərlik tərbiyəsinin vasitəsi kimi təsir gücünü aydın şəkildə diqqətə çatdırır. Bu irslə şagirdlərin tanış edilməsi, onların diqqətinin başlıca məqamlara yönləndirilməsində, təbii ki, müəllimin də üzərinə böyük məsuliyyət düşür.

Ə.Cavad yaradıcılığının 11-ci sinifdə (Ədəbiyyat - s.55-64) daha dərindən öyrənilməsi imkanları vardır. Burada şairin həyatı ilə bağlı geniş məlumatlar verilir, həm də “Səsli qız” (ixtisarla) poemasının tədrisi nəzərdə tutulur.

Ə.Cavadın həyat və fəaliyyəti, onun yaratdığı irs barədə Azərbaycan tarixinin də geniş imkanları vardır. 5-ci, 9-cu və 11-ci sinfin Azərbaycan tarixi fənninin tədrisində Azərbaycanın istiqlal mübarizəsini, mədəniyyət məsələlərini, 1930-cu illərin repressiya tarixini tədris edərkən Ə.Cavad haqqında geniş məlumat əldə etmək, onun Azərbaycan dövlətçiliyinə, mədəniyyətinə, ədəbiyyatına, təhsilinə verdiyi töhfələrdən geniş bəhs etmək mümkündür.

Ə.Cavad irsinin öyrənilməsi vasitəsilə şagirdlərin vətənpərvərlik tərbiyəsi imkanları dərsdənkənar vaxtlarda daha genişdir. Tədris ili müddətində ayrı-ayrı vaxtlarda böyük istiqlal şairinin həyat və yaradıcılığına həsr olunmuş müxtəlif mövzularda tədbirlərin keçirilməsi də məqsədəuyğundur. Belə tədbirlərdə şagirdlər Ə.Cavad yaradıcılığını, onun həyat yolunu dərindən öyrənməklə bərabər, şairin əsərlərinin başlıca ideyasını təşkil edən vətənpərvərlik ruhunu mənimsəyir, onlarda milli özünüdərk hissinin daha da güclənməsinə zəmin yaranır.

Bu baxımdan, ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvərlik tərbiyəsinin rəngarəng forma və metodlarının tətbiqi, Ə.Cavad irsinin ardıcıl və sistemli öyrənilməsi əhəmiyyətlidir.

**İntiqam CƏBRAYILOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, pedaqogika elmləri doktoru, professor*




Bədən tərbiyəsi və idmanın inkişafında, təcrübəli idmançıların, yüksək dərəcəli məşqçilərin hazırlanmasında idman məktəblərinin rolu böyükdür. Məhz onların yetişdirdiyi idmançılar daha sonra klub və cəmiyyətlərə, yığmalara cəlb olunaraq püxtələşirlər. Həmin idmançılar dünya, Avropa və olimpiya çemonatlarında ölkəmizi layiqli təmsil edərək vətənimizə saysız-hesabsız medallar gətirirlər. Azərbaycanın bütün şəhər və rayonlarında idman məktəbləri fəaliyyət göstərir. Elm və Təhsil Nazirliyinin tabeliyində olan "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt Şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbi də məhz belə qurumlardan biridir.

# Məşhurları ilə tanınan idman məktəbi

İdman məktəbi 1981-ci ildən fəaliyyət göstərir. Ulu öndər Heydər Əliyev 1981-ci ildə Sumqayıt Şahmat məktəbinin açılışında iştirak etmişdir. Yarandığı gündən güclü idmançıların hazırlanmasında böyük rolu olan "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt Şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbində hazırda şahmat, cüdo, sambo, futbol, sərbəst güləş, karate bölmələri fəaliyyət göstərir. Məktəbdə 6 bölmə üzrə 110 qrupda 1300 idmançı məşğul olur.

İdman məktəbinin tarixi barədə "Azərbaycan müəllimi" qəzetinə geniş məlumat verən "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt Şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktor əvəzi Üzeyir Dadaşov məktəbin tanınmış yetirmələrindən söhbət açdı: "Bildiyimiz kimi, məktəb yarandığı gündən bir çox təcrübəli şahmatçılar yetişdirmişdir. Burada dünya miqyaslı şahmatçı Şəhriyar Məmmədyarov şahmatın ilk sirlərini öyrənmişdir. 1992-ci ildən Şəhriyar Məmmədyarov və onun bacıları Zeynəb və Türkan Məmmədyarovalar bizim məktəbdə şahmat dərslərini keçiblər. Onlar ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qrossmeysterlərdir. İlk milli usta — bu məktəbin yetirməsi Rauf Hacılını qeyd edə bilərəm. 1992-ci ildə Rauf Hacılı 20 yaşlılar arasında Avropa birinciliyində iştirak edib və V yerə layiq görülüb. 2016-cı ildə ölkəmizdə şahmat olimpiadası keçirildi. Həmin olimpiadada Azərbaycan 6 komanda ilə təmsil olunmuşdur. Komandaların kapitanı bizim məktəbin yetirmələri Şəhriyar Məmmədyarov, Zeynəb Məmmədyarova, Türkan Məmmədyarova və Vasif Durarbəyli idilər. Bunun özü böyük bir qürurdur. Bundan başqa, müxtəlif illərdə məktəbin idmançıları yarışlarda iştirak edərək ölkəmizə medallar gətiriblər. Son vaxtlara nəzər salsaq, onu demək olar ki, pandemiya dövründə 2021-ci ilin may ayının 7-də onlayn Avropa çempionatında beynəlxalq usta Murad İbrahimli I yerə layiq görülüb.

2017-ci ildən məktəbə futbol, karate, sərbəst güləş, cüdo və sambo bölmələri birləşdirildi. Həmin vaxtdan bu bölmələr üzrə də kifayət qədər uğurlar var. Belə ki, Natiq Qurbanlı 2017-ci ildə cüdo üzrə keçirilən dünya çempionatında II yeri tutub. Karate bölməsi üzrə məşqçi-müəllim Azər Aslanovun yetirməsi Xədicə Mirsəlova 2021-ci ildə Avropa və dünya birinciliyində 58 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Sambo bölməsi üzrə İlham Məmmədov yetirməsi Əli Hacıyev 2021-ci ildə dünya çempionatında III yerə layiq görülüb. "Tokio-2020" Yay Paralimpiya Oyunlarında paracüdoçumuz Fərid Ağakişiyevin yetirməsi Şahanə Hacıyeva 48 kq çəki dərəcəsində həmin oyunların ilk qızıl medalını qazanıb. 2019-cu ildə Qazaxıstanın Almatı şəhərində yeniyetmə cüdoçular arasında keçirilən dünya birinciliyində 60 kq çəki dərəcəsində Kamran Süleymanlı qızıl medal qazanaraq ölkəmizi layiqli təmsil etmişdir. Bundan başqa, Rövşən Səfərov 2016-cı ildə Braziliyada keçirilən Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. O həm də ikiqat Avropa çempionu, iki dəfə dünya üçüncüsü, "Tərəqqi" medallı və Əməkdar idman ustasıdır".




## "Sloveniyada çempion oldum"

İdman məktəbində olduğumuz zaman məktəbin yetirmələri ilə görüşüb, onların uğurları barədə məlumat aldıq. İlk olaraq cüdo bölməsinin yetirməsi Fidan Qasımova ilə uğurları barədə söhbət edib, bu idman növünə olan sevgisini öyrənməyə çalışdıq: "2006-cı ildə anadan olmuşam. İdmana həvəsim uşaq yaşlarımdan olub. Valideynlərimin dəstəyi ilə 8 yaşımdan təcrübəli müəllimlərdən cüdonun sirlərini öyrənməyə başladım. Sumqayıt şəhər 11 nömrəli tam orta məktəbin XI sinif şagirdiyəm. Yığma komandanın üzvüyəm. 2022-ci ildə İspaniyada keçirilən Avropa kubokunda bürünc medala sahib oldum. Bu ilin oktyabr ayında Sloveniyada keçirilən beynəlxalq turnirdə çempion oldum. Ən böyük arzum bu idman növü üzrə tanınmış və təcrübəli idmançı olmaqdır».

## "Ermənini mat etdim"

Şahmat bölməsinin fəxri üzvlərindən olan Leyla Mirzəliyevanı şahmat dərsindən çıxanda gördük. Öyrəndik ki, dörd yaşından şahmatla məşğul olur. Onun da bu idman növünə sevgisi balacalıqdan başlayıb. Daha doğrusu, valideynlərinin Leylanın yanında şahmat oynaması fiqurlara olan sevgisini artırıb və onu buna həvəsləndirib: "2012-ci ildə Bakı şəhərində anadan olmuşam. Şahmatın sirlərini Könül müəllimdən öyrənmişəm. Daha sonra Rəşad Həsənov mənə şahmat dərslərini keçib. 7 yaşımdan şahmatda ilk uğurlarım başlayıb. Belə ki, 2018-ci ilin yanvar ayından zona və ölkədaxili yarışlarda, beynəlxalq turnirlərdə iştirak etmişəm. Ən böyük uğurlarımdan biri bu ilin noyabr ayında Türkiyənin Antalya şəhərində 46 ölkədən 1000-dən çox şahmatçının iştirakı ilə keçirilən Avropa çempionatında III yerə layiq görülməyim olub. Həmin çempionatda bizim yaşda 65 nəfər şahmatçı var idi. Bu yarışda ən çox ürəyimcə olan qarşılaşma erməni şahmatçı ilə oldu. Düşmən təmsilçisini mat edərək qalib gəldim. Hədəflərim şahmat üzrə tanınmış qrossmeyster olmaqla yanaşı, savadlı və sayılıb-seçilən həkim olmaqdır".

**Rəşad ZİYADOV**




# "Deneyap" texnologiya laboratoriyasında "İlk dərs günü"

## 80 şagird 3 il müddətində "Deneyap"da təhsil alacaq

Şagird və valideynlər üçün "Bilim Bakı" Mərkəzinin "Deneyap" texnologiya laboratoriyasında "İlk dərs günü" tədbiri keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin direktoru Vüsal Rüstəmov, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Başarət Məmmədov, şagirdlər və valideynlər iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin təşkilatçılığı ilə keçirilən tədbirdə şagirdlərə və onların valideynlərinə "Deneyap" proqramı çərçivəsində keçiriləcək təlimlər, laboratoriya konseptləri, tədbirlər, təhsil modeli və dərs planları, tədris müddəti, dərsliklər barədə ətraflı məlumat verilib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb və "Deneyap" texnologiya laboratoriyasına şagird seçimi imtahanlarının təşkil olunmasına dəstək göstərən şəxslərə sertifikatlar təqdim olunub.

Qonaqlar "Deneyap" texnologiya laboratoriyasına qəbul olunmuş şagirdləri və valideynləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonda ilk dərs zəngi çalınıb və xatirə fotosu çəkilib.

Qeyd edək ki, "Deneyap" texnologiya laboratoriyasına şagird seçimi imtahanı 2 mərhələdən ibarət olub. I mərhələdə yazılı imtahanda iştirak edən Bakı şəhəri ümumi təhsil məktəblərinin IV-VII sinfini bitirən 1200-ə yaxın şagird arasından ən çox bal toplayan 334 şagird II mərhələdə praktiki imtahanda biliyini sınayıb. Hər iki mərhələdə ümumi olaraq ən yüksək nəticə göstərən 80 şagird 3 il müddətində "Deneyap" texnologiya laboratoriyasında təhsil almaq hüququ qazanıb.



Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| Sıra №-si | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Ədəbiyyat və dillər kafedrası | kafedra müdiri | 1 |
| 2. | Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası | dosent, 0,5 ştat vahidi | 1 |
| 3. | Ədəbiyyat və dillər kafedrası | Baş müəllim | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:**

Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:**

599-00-54 (daxili-100)

**REKTORLUQ**

“AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7717 **Sifariş** 3444

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Abşeron rayon** Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Qurbanova Mehriban Mehman qızına verilmiş C-072877 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Fərid Yaşar oğluna verilmiş E-508867 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 6 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədli Gülgəz Rövşən qızına verilmiş B-635953 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Hüseynzadə Murad Məhərrəm oğluna verilmiş B-662665 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədova Məhbubə Teymur qızına verilmiş A-080093 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qazangül qəsəbə tam orta məktəbi 1997-ci ildə bitirmiş Haqverdiyeva Nəzakət Camal qızına verilmiş A-128976 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Abdullayeva (Hüseynzadə) Nübar Məhərrəm qızına verilmiş B-743687 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Qudavasova Həbibə Süleyman qızına verilmiş A-218263 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qazangül qəsəbə tam orta məktəbi 2022-ci ildə bitirmiş Əfəndiyeva Sona İslam qızına verilmiş E-513988 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 1 nömrəli məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İsgəndərov Vaqif Ramiz oğluna verilmiş A-885551 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 3 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Hacıyeva Rüxsarə Cuma qızına verilmiş A-0723 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Quliyev Amil Rəmzi oğluna verilmiş C-577671 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qırlı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Allahverdiyev Səxavət Bəhlul oğluna verilmiş A-347807 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Böyük Kəsik kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Musayev Əziz Mərdalı oğluna verilmiş A-804283 nömrəli ümumi orta təhsil haqqında attestat və 2011-ci ildə verilmiş A-038428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Texniki Humanitar Liseyi** 2006-cı ildə bitirmiş İbrahimova (Babayeva) Nərmin Mobil qızına verilmiş B-261879 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** nəzdində İnşaat Kolleci tərəfindən 2022-ci ildə Məmmədov Nağı Yaşar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Müasir İnnovasiyalar Liseyini** 2022-ci ildə bitirmiş Ələsgərli Ayxan Fikrət oğluna verilmiş C-627764 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Sərxanov Murad Nurağa oğluna verilmiş A-101223 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kolleci** tərəfindən 2008-ci ildə Abbasova Bilgeyis Eldar qızına verilmiş BB-II-071701 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** (Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci) tərəfindən 2016-cı ildə Fətullayev İlkin Nizami oğluna verilmiş AA-087643 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon Peşə Məktəbi** tərəfindən 1989-cu ildə Musayev Qiyas İsa oğluna verilmiş H-108722 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba Özəl Türk Liseyini** 2010-cu ildə bitirmiş Məmmədov Ramil Ehtibar oğluna verilmiş B-744784 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Çarlı kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Cəfərova (Nemətova) Gülbəniz İlqar qızına verilmiş B-521147 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 33 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Məmmədova Zəminə Arzu qızına verilmiş A-628283 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Şəmilov Mehdi Səbuhi oğluna verilmiş E-392840 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Bayramov Ruslan Eldəniz oğluna verilmiş B-684796 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1991-ci ildə Sarıyeva Sevinc Kamran qızına verilmiş УB-I-120905 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Səlimov Ağaseyid Əlikram oğluna verilmiş C-076009 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 16.06.1994-cü ildə bitirmiş Əliyeva Ədilə Eldar qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Parakənd kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Bağırov İqbal Mübariz oğluna verilmiş E-432286 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Balayev Kamran Rza oğluna verilmiş B-182995 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 2009-cu ildə bitirmiş Qasımov Elşən Nazim oğluna 2010-cu ildə verilmiş B-160456 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Seydan kənd ümumi orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Cəfərova Elnarə Cəfər qızına verilmiş 404370 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Həsənova Solmaz Zöhrab qızına verilmiş A-063683 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 16 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Quliyev Aqşin Əmrullah oğluna verilmiş A-296295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Bənövşələr kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Rəhimli Narınc Hamlet qızına verilmiş B-702118 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Bəcrəvan kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş İsgəndərli Zahir Nail oğluna verilmiş A-218352 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) tərəfindən 2008-ci ildə Quliyev Üzeyir Müzəffər oğluna verilmiş B-124054 nömrəli bakalavr diplomu və əlavəsi tapıldığı üçün etibarlı sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2021-ci ildə Məmmədzadə Fatimə Rahil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2017-ci ildə Məmmədov Ceyhun Oqtay oğluna verilmiş A-115329 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 134 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Cəfərov Tofiq Natiq oğluna verilmiş B-606116 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 8 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Müslümov Mübariz Oruc oğluna verilmiş A-279643 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2018-ci ildə Şeref Merve Başaka verilmiş TN-012499 nömrəli hazırlıq kursunu bitirmə haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Cəfərov Ümid Abdurrəhman oğluna verilmiş A-301363 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Mustafabəyli kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Xəlilov Anar Nadir oğluna verilmiş A-475521 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2010-cu ildə Hacıyeva Səriyyə Hacı qızına verilmiş BB-II-094229 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə Ağasiyeva Zülfiyyə Əflatun qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Səyyaflı Abdin Faiq oğluna verilmiş E-339568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Nəzərova Zərifə Hicran qızına verilmiş A-003543 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Rəsulov Anar Əmirxan oğluna verilmiş A-593950 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Şin kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Nəzirov Şahid Seyfullah oğluna verilmiş A-003984 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Oraban kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Etibar Anar oğluna verilmiş E-512705 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Göynük kənd 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədov Coşqun Cahangir oğluna verilmiş A-432235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 1982-ci ildə bitirmiş İbrahimova Mədinə Oktay qızına verilmiş AU-730522 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çərçiboğan kənd tam orta məktəbi 1987-ci ildə bitirmiş Abbasova Elgün Əli qızına verilmiş AR-413163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2022-ci ildə Abdullayev Muhəməd Robert oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köçəkli kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Ağamirzəzadə Şərqiyyə Əfrahim qızına verilmiş A-343585 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Babayeva Qumru Fəxrət qızına verilmiş B-710174 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Sığdaş kənd tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Əbilov Nəzər Fazil oğluna verilmiş B-282778 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Balayev Kamran Rza oğluna verilmiş 182995 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Hökməli qəsəbə tam orta məktəbi 2017-ci ildə bitirmiş Bəndəliyev Vəlǝddin Vəlǝddin oğluna verilmiş E-059019 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** İstisu (Müqtədir) qəsəbə tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Sultanova Zeynəb Vaqifovnaya verilmiş A-147550 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Düdəngə kənd tam orta məktəbin IX sinfini 1989-cu ildə bitirmiş Əhmədova Rəsmiyyə Səttar qızına verilmiş A-515008 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Buravar kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Rəcova Nərmin Nazim qızına verilmiş E-098975 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Bum qəsəbə tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılova Günel Cümşüd qızına verilmiş B-296213 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1998-ci ildə Qubadov Cümşüd Sədrəddin oğluna verilmiş A-027533 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 4 nömrəli (Xudat şəhər 4 nömrəli məktəb-lisey) IX sinfini 1994-cü ildə bitirmiş Hüseynova (Novruzova) Mahirə Qurban qızına verilmiş 163 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qaradağ rayon 105 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Xəlilova Zərinə Gülxəlil qızına verilmiş A-763807 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2020-ci ildə Qənibərova Aydan Sərvər qızına verilmiş C-069001 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Quşçu kənd tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Mürşüdov Kənan Kəmaləddin oğluna verilmiş A-482836 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dondar Quşçu kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Abdullayev Nəcəf Nadir oğluna verilmiş A-269726 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Səbail rayon 162 nömrəli tam orta məktəbin IX sinfini 23.06.2007-ci ildə bitirmiş Yəhyayev Ramiz Arif oğluna verilmiş AN-581643 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** M.Müşfiq adına 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bəşirov Şəbüstəri Xaqani oğluna verilmiş B-124123 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Pirasora kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Bağırov Firdovsi Yədulla oğluna verilmiş 000409 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universitetinin Humanitar Liseyini** 2006-cı ildə bitirmiş Kərimov Kənan Elxan oğluna verilmiş B-321817 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**18 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2006-cı ildə Babayev Elvinə verilmiş BB-014513 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Eyvazalılar kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Eldarova Nuray Seyfəddin qızına verilmiş B-262296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Aşağı Küngüt kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Tural Ərəstun oğluna verilmiş A-490323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyev Bahadur Elşən oğluna verilmiş E-242638 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.



# Məzunların işlə təmin olunması üçün ən yaxşı universitetlər müəyyən edilib

REYTİNQ

# Tələbələr hansı universiteti seçməlidirlər?

Oruc MUSTAFAYEV

Müasir dünya yüksəkixtisaslı, peşəkar, intellektli, xüsusi səriştə və bacarıqlara sahib mütəxəssislərin çiyinləri üzərində formalaşmaqdadır. Daim dəyişən əmək bazarı isə ali təhsil müəssisələrindən yüksəkixtisaslı, əməkqabiliyyətli mütəxəssislər gözləyir. Bəs, bu məzunlar harada hazırlanır? Hansı universitetlər daha yaxşı əməkqabiliyyətli məzunlar buraxır?

Böyük Britaniyanın "Times Higher Education" nəşrinin növbəti tədqiqatı bu suala cavab verir. Tədqiqatın arayış hissəsində qeyd olunur ki, universitetə daxil olmaq karyera hazırlığından daha artıq anlam daşıyır, düzgün seçilmiş təhsil müəssisəsi və ixtisas kursu, şübhəsiz ki, məzun perspektivinizi yaxşılaşdıra bilər. "Emerging" konsaltinq şirkəti tərəfindən hazırlanmış və "Times Higher Education" tərəfindən yayımlanan qlobal iş imkanları reytinqi göstərir ki, aparıcı şirkətlərdə iş həyatına hazırlaşmaq üçün hansı universitetlər daha uyğundur.

Reytinqdə yer almış 250 universitet ABŞ-dan Yaponiyaya qədər 44 ölkəni əhatə edir. İşəgötürənlər həm öz ölkələrindəki, həm də digər regionlarda yerləşən universitetlərə səs veriblər.

Reytinqin ilk 10-luğunda Sinqapur, Yaponiya və Böyük Britaniyanın ali təhsil müəssisələri möhkəmlənib. Bundan əlavə, Yaponiya, Kanada universitetləri də reytinqdə yüksək yerləri tutur.

| Reytinq | Ali təhsil müəssisəsi | Ölkə |
|---|---|---|
| 1 | Massachusetts Institute of Technology | ABŞ |
| 2 | California Institute of Technology | ABŞ |
| 3 | Harvard University | ABŞ |
| 4 | University of Cambridge | Böyük Britaniya |
| 5 | Stanford University | ABŞ |
| 6 | University of Oxford | Böyük Britaniya |
| 7 | The University of Tokyo | Yaponiya |
| 8 | National University of Singapore | Sinqapur |
| 9 | Princeton University | ABŞ |
| 10 | Yale University | ABŞ |
| 11 | University of Toronto | Kanada |
| 12 | Technical University of Munich | Almaniya |
| 13 | Columbia University | ABŞ |
| 14 | Peking University | Çin |
| 15 | ETH Zurich | İsveçrə |
| 16 | Imperial College London | Böyük Britaniya |
| 17 | New York University | ABŞ |
| 18 | CentraleSupélec | Fransa |
| 19 | IE University | İspaniya |
| 20 | École Polytechnique Fédérale de Lausanne | İsveçrə |
| 21 | University of California, Berkeley | ABŞ |
| 22 | Boston University | ABŞ |
| 23 | HEC Paris | Fransa |
| 24 | Carnegie Mellon University | ABŞ |
| 25 | London School of Economics and Political Science | Böyük Britaniya |
| 26 | Duke University | ABŞ |
| 27 | Tsinghua University | Çin |
| 28 | Indian Institute of Technology Delhi | Hindistan |
| 29 | McGill University | Kanada |
| 30 | The Hong Kong University of Science and Technology | Honkonq |
| 31 | Tokyo Institute of Technology | Yaponiya |
| 32 | Nanyang Technological University, Singapore | Sinqapur |
| 33 | École Polytechnique | Fransa |
| 34 | Arizona State University | ABŞ |
| 35 | Australian National University | Avstraliya |
| 36 | University of British Columbia | Kanada |
| 37 | University of Navarra | İspaniya |
| 38 | Johns Hopkins University | ABŞ |
| 39 | Erasmus University Rotterdam | Niderland |
| 40 | Technion Israel Institute of Technology | İsrail |
| 41 | EMLyon Business School | Fransa |
| 42 | Kyoto University | Yaponiya |
| 43 | Shanghai Jiao Tong University | Çin |
| 44 | KU Leuven | Belçika |
| 45 | University of Melbourne | Avstraliya |
| 46 | Georgia Institute of Technology | ABŞ |
| 47 | University of Hong Kong | Honkonq |
| 48 | Humboldt University of Berlin | Almaniya |
| 49 | London Business School | Böyük Britaniya |
| 50 | Mines ParisTech | Fransa |

### 1. Massaçusets Texnologiya İnstitutu

Özünün dünyada tanınan aparıcı kurslarına əlavə olaraq, Massaçusets Texnologiya İnstitutu tələbələr, sahə liderləri və geniş ictimaiyyət üçün də ixtisasartırma proqramları təklif edir. Bir çox şirkətlər tez-tez bu ali məktəbin ayrı-ayrı fənləri əhatə edən və bir neçə il davam edən kurs və tədqiqatlarında fəal iştirak edirlər. Massaçusets Texnologiya İnstitutunun tələbələri, müəllimləri və məzunları sahibkarlıq innovasiyalarında, o cümlədən qabaqcıl kompüter şəbəkələrinin hazırlanmasında, vençur kapitalı ilə sövdələşmələrin təhlükəsizliyinin təmin edilməsi və biotexnologiyanın inkişafında əsas rol oynayırlar.

### 2. Kaliforniya Texnologiya İnstitutu

Təəccüblü deyil ki, dünyanın ən yaxşı universitetlərindən sayılan Kaliforniya Texnologiya İnstitutu da xarici işəgötürənlər arasında populyardır. Tələbələr riyaziyyat, elm və texnika sahələrində güclü maraq və bacarıqları əsasında bu ali məktəbə qəbul olunurlar.

Kaliforniya Texnologiya İnstitutunun tələbələri bir sıra təbiət və mühəndislik fənlərinin əsaslarını öyrənməklə yanaşı, cəmiyyətin ən aktual problemlərini həll etmək üçün ən innovativ vasitələri də mənimsəyirlər.

Tələbələrin sayı digər universitetlərlə müqayisədə azdır: burada 1000-dən bir az çox tələbə və 1200 aspirant təhsil alır. Bu cür mühit müəllimlərlə tələbələr arasında yaxşı münasibətlər saxlamağa imkan verir.

### 3. Harvard Universiteti

Harvard Universiteti ABŞ-ın ən qədim və ən nüfuzlu ali məktəbidir. Harvardda 30-dan çox dövlət başçısı təhsil alıb, universitetin məzunları arasında 38 Nobel və 48 Pulitzer mükafatı laureatı var. İşəgötürənlər arasında məşhurlaşan bir çox təhsil müəssisələri kimi Harvard da uzunillik yenilikçi tədqiqat və innovasiya tarixinə malikdir. Bir çox tələbə idmandan tutmuş, müvəffəqiyyət əldə etmək üçün onları zəruri bacarıqlarla silahlandıran sahibkarlıq fəaliyyətinə qədər universitetdənkənar fəaliyyətlə də məşğul olur.

### 4. Kembric Universiteti

Kembric Universiteti dünyanın ən yaxşı və ən elit universitetlərindən biridir. Onun tarixi 13-cü əsrə gedib çıxır. İndi onun məzunları bütün dünyada tələb olunur. Məzunlar xüsusilə Oksford və Kembric universitetləri üçün unikal olan fərdi təhsil nəticəsində əldə etdikləri xüsusi biliklərə görə bütün dünyada qiymətləndirilir.

### 5. Stanford Universiteti

Stanford Universiteti Kaliforniya ştatının Pasadena şəhərində, dünyada məşhur olan Silikon vadisinin yaxınlığında yerləşir. Ümumilikdə, Stanfordun filialları və məzunları tərəfindən qurulan şirkətlər 2,7 trilyon dollardan çox illik gəlir gətirirlər ki, bu da dünyanın 10-cu ən böyük iqtisadiyyatıdır. Bu firmalara Google, Nike, Netflix, Hewlett-Packard, Sun Microsystems, Instagram və Charles Schwab daxildir. Stanfordun məzunları Kiva və SIRUM kimi qeyri-kommersiya təşkilatlarını da qurublar.

Reytinqlə daha ətraflı *(https://www.timeshighereducation.com/student/best-universities/best-universities-graduate-jobs-global-university-employability-ranking)* səhifəsindən tanış olmaq olar.

| | | |
|---|---|---|
| 51 | Fudan University | Çin |
| 52 | Sorbonne University | Fransa |
| 53 | Technical University of Berlin | Almaniya |
| 54 | LMU Munich | Almaniya |
| 55 | ESSEC Business School | Fransa |
| 56 | University of Sydney | Avstraliya |
| 57 | EDHEC Business School | Fransa |
| 58 | Indian Institute of Science | Hindistan |
| 59 | Paris Sciences et Lettres – PSL Research University Paris | Fransa |
| 60 | Bocconi University | İtaliya |
| 61 | University of Helsinki | Finlandiya |
| 62 | KTH Royal Institute of Technology | İsveç |
| 63 | University of Montreal/HEC | Kanada |
| 64 | King's College London | Böyük Britaniya |
| 65 | Seoul National University | Avstraliya |
| 66 | Hebrew University of Jerusalem | İsrail |
| 67 | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya |
| 68 | Paris-Sud University | Fransa |
| 69 | University of Zurich | İsveçrə |
| 70 | ESCP Europe | Fransa |
| 71 | Stockholm University | İsveç |
| 72 | Indian Institute of Technology Bombay | Hindistan |
| 73 | Heidelberg University | Almaniya |
| 74 | Dartmouth College | ABŞ |
| 75 | University of Manchester | Böyük Britaniya |
| 76 | Florida Institute of Technology | ABŞ |
| 77 | Cornell University | ABŞ |
| 78 | Monterrey Institute of Technology | Meksika |
| 79 | University of Science and Technology of China | Çin |
| 80 | University of California, Los Angeles | ABŞ |
| 81 | McMaster University | Kanada |
| 82 | Frankfurt School of Finance & Management | Almaniya |
| 83 | Brown University | ABŞ |
| 84 | University of Auckland | Yeni Zelandiya |
| 85 | National Taiwan University | Tayvan |
| 86 | National Taiwan University of Science and Technology | Tayvan |
| 87 | Delft University of Technology | Niderland |
| 88 | Technical University of Denmark | Danimarka |
| 89 | Hanyang University | Cənubi Koreya |
| 90 | The University of Chicago | ABŞ |
| 91 | Tel Aviv University | İsrail |
| 92 | Sungkyunkwan University | Cənubi Koreya |
| 93 | University of Vienna | Avstriya |
| 94 | Chinese University of Hong Kong | Honkonq |
| 95 | Pohang University of Science and Technology | Cənubi Koreya |
| 96 | Leiden University | Niderland |
| 97 | The University of Queensland | Avstraliya |
| 98 | Free University of Berlin | Almaniya |
| 99 | Polytechnic University of Milan | İtaliya |
| 100 | Tufts University | ABŞ |